Təhsil millətin gələcəyidir!

Heydər Əliyev

AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

31 oktyabr 2026-cı il | №41 (9194) | www.muallim.edu.az | muallim@media.edu.az

ORTAQ GƏLƏCƏK NAMİNƏ DİALOQ

Prezident İlham Əliyev: "Hamımız milli ideyalar ətrafında birləşirik, onlardan biri azərbaycançılıqdır"

Oktyabrın 27-də Bakıda "Ortaq gələcək naminə dialoq" mövzusunda VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimi keçirilib. Forumun açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirib ki, əsrlər boyu Azərbaycan Asiya ilə Avropa arasında mədəniyyət körpüsü olub:



"Multikulturalizm ənənələri, dini və etnik dözümlülük xalqımızın əsrlər boyu yaşatdığı meyarlar olub və biz onları yüksək dəyərləndiririk. Azərbaycanın uğurlu və sabit inkişafının təməlində dayanan əsas səbəblərdən biri isə cəmiyyətimizdəki ahəngdarlıqdır. Bütün etnik qrupların, dinlərin nümayəndələrinin Konstitusiyamıza uyğun olaraq, nəinki bərabər hüquqları var, onlar, həmçinin bir ailə kimi yaşayırlar. Biz həmrəylik, qarşılıqlı hörmət və anlaşmanın ən yüksək səviyyəsini həqiqətən hiss edirik. Hamımız milli ideyalar ətrafında birləşirik. Onlardan biri azərbaycançılıqdır. O, Azərbaycandakı bütün xalqları bir araya gətirir. Bu birlik müstəqillik tariximizin ən ağır vaxtlarında özünü göstərib. Ermənistanın hərbi təcavüzü və işğalı, həmçinin İkinci Qarabağ müharibəsi zamanı bütün etnik və dini qrupların nümayəndələri özünəməxsusluğumuzu qorumaq, ədaləti müdafiə etmək və ərazi bütövlüyümüzü bərpa etmək üçün Qələbəmizin rəmzi olan "Dəmir yumruq" kimi vuruşdular.

Beləliklə, birliyin bu cür böyük təzahürü bir daha cəmiyyətimizin durumunu göstərir. Bir daha deyirəm ki, əgər bizdə - Azərbaycanda yaşayan bütün xalqlar arasında qarşılıqlı hörmət, əhatəliliyin real platforması olmasaydı, biz heç zaman uğur qazana bilməzdik. Çox fərhlənirik ki, həmin dəyərləri əsrlər boyu qoruyub saxlaya bilmişik.

Azərbaycan əsrlər boyu öz dövlətçiliyindən məhrum olmuşdur, baxmayaraq ki, bizim əvvəlki əsrlərdə dövlətçiliyin çox böyük ənənələri var. Lakin son iki əsrdə biz müstəqil olmamışıq. Bununla belə, yaşadığımız sistemdən asılı olmayaraq, dəyərlərimizi, dilimizi, ənənələrimizi, həyat tərzimizi qoruyub saxlaya bilmişik. Hamınız bilirsiniz ki, biz fərqli sistemlərdə yaşamışıq.

Bununla belə, yaşadığımız həmin sistemlərin heç biri bizim milli hisslərimizi, əzmimizi poza bilmədi. Ona görə də Azərbaycan müstəqilliyini bərpa etdiyi zaman biz öz taleyimizin sahibinə çevrildik".

Dövlət başçısı onu da qeyd edib ki, Azərbaycanda hər hansı daxili risklərimiz yoxdur:

"Bütün potensial risklər hüdudlarımızın kənarından gəlir. İdeoloji risklər isə fiziki risklər qədər təhlükəlidir. Buna görə biz hər zaman ayıq-sayıq olmalıyıq, özünəməxsusluğumuzun, dövlətçiliyimizin, müstəqilliyimizin və həyat tərzimizin qorunmasına çox sadiq olmalıyıq".

Tədbirdə çıxış edən İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Səlim bin Məhəmməd əl-Malik isə Azərbaycanın müxtəlif ölkələrdə təhsilin inkişafına verdiyi dəstəkdən danışıb:

"Azərbaycanın dəstəyi bizə imkan verir ki, Suriyada 100-dən çox məktəbi bərpa edək və 10 yeni məktəb tikə bilək. Heydər Əliyev Fondu vasitəsilə biz Burkina-Fasoda və Nigerdə qızların təhsilini dəstəkləyirik".



Azərbaycan startapına yarım milyon manat sərmayə qoyuldu



SABAH Mələk İnvestorlar Klubunun (SABAH.angels) üzvləri azərbaycanlı təsisçilərin yaratdığı "Clopos Inc." şirkətinə ümumilikdə 500 min AZN investisiya yatırıb. İnvestisiya prosesi klubun baş icraçı direktoru Alya Abbaszadənin rəhbərliyi ilə təşkil olunub. Bu, "SABAH.angels"in ümumilikdə beşinci, eyni zamanda klubun ilk yerli startap investisiyasıdır. 2018-ci ildə yaradılmış "Clopos" restoran, kafe və digər iaşə müəssisələri üçün bulud əsaslı POS və idarəetmə həlləri təqdim edir. Platforma satış, ödəniş, anbar, maliyyə və gündəlik əməliyyatların vahid sistemdən idarə olunmasına imkan yaradır. Hazırda 13-dən çox ölkədə 4500-dən artıq aktiv müştəriyə xidmət göstərən şirkətin baş ofisi Nyu-Yorkda, tədqiqat və inkişaf mərkəzi isə Bakıda yerləşir.

Qeyd edək ki, "SABAH.angels" hazırda 180-dən çox aktiv mələk investoru birləşdirir. Onlardan 69-u investisiya proseslərində müntəzəm iştirak edir. Müxtəlif sahələrdə təcrübəsi olan investorları bir araya gətirən klub ABŞ, Azərbaycan, Türkiyə, Gürcüstan, Mərkəzi Asiya, Yaxın Şərq və Şimali Afrikada yüksək inkişaf potensialına malik erkən mərhələli startaplara diqqət yetirir.

SOCAR ilə DP məzunlarının karyerası müzakirə edilib




Dövlət Proqramı İdarəetmə Qrupu ilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR) nümayəndələri arasında görüş keçirilib. Bildirilib ki, DPİQ tərəfindən şirkətə yönləndirilmiş, iş axtarışında olan məzunlarla SOCAR, onun tabeli və törəmə qurumları, eləcə də Bakı Ali Neft Məktəbində mövcud vakansiyalar üzrə görüşlər keçirilib və məzunların işə qəbulu istiqamətində işlər davam etdirilir.

Həmçinin qeyd olunub ki, Dövlət Proqramı məzunları SOCAR-da işə qəbul zamanı test mərhələsindən azad edilərək birbaşa müsahibə mərhələsinə buraxılırlar.

Tərəflər arasında Dövlət Proqramı iştirakçıları və məzunlarının SOCAR-ın təcrübə proqramlarında iştirakı barədə razılıq əldə olunub.

Görüşdə Dövlət Proqramı iştirakçılarının təhsil xərclərinin bir hissəsinin SOCAR tərəfindən maliyyələşdirilməsi imkanları da müzakirə olunub.

PISA 2029-da bu bacarıqlar da qiymətləndiriləcək



PISA 2029-da media və süni intellekt savadlılığı qiymətləndiriləcək. Bu barədə Təhsil İnstitutunun (ARTİ) direktor səlahiyyətlərini müvəqqəti icra edən Elnur Əliyev məlumat verib. O bildirib ki, yeni standartlarda nəzərdə tutulan səriştələrin dərs prosesində necə tətbiq ediləcəyinin öyrənilməsi də vacibdir:

"Müxtəlif ölkələrin bu bacarıqları təhsil standartlarından sinif mühitinə necə keçirdiyini araşdırmaq istəyirik. Çünki standartlarda müəyyən tələblərin nəzərdə tutulması ilə onların dərsdə tətbiqi fərqli məsələlərdir. Bu istiqamətdə beynəlxalq təcrübənin öyrənilməsi və gələcəkdə müvafiq qiymətləndirmə vasitələrinin hazırlanması əhəmiyyətlidir".

Şamaxıda iki yeni körpələr evi-uşaq bağçasının açılışı olub — Bax səh.2

Fin təhsilinə nə oldu? — Bax səh.5

Dövlət Proqramı təqaüdçüsü Oksfordda müəllim oldu — Bax səh.6

Şagirdlərimizin uğur hekayələri — Bax səh.7

Şamaxıda iki yeni körpələr evi-uşaq bağçasının açılışı olub

Oktyabrın 26-da Şamaxıda Xınıslı körpələr evi-uşaq bağçasının və Göylər kəndində yeni inşa olunan körpələr evi-uşaq bağçasının açılışı olub. Hər iki açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Alyona Əliyeva iştirak edib, yaradılan şəraitlə tanış olublar.





Qeyd edilib ki, Heydər Əliyev Fondu tərəfindən inşa edilən Xınıslı körpələr evi-uşaq bağçası 110 yerlikdir. Burada qızlar və oğlanlar üçün ayrı-ayrı korpuslarda yataq otaqları, eləcə də qrup, informatika və tibb otaqları, musiqi və gimnastika zalları, qarderob, yeməkxana var. Məktəbəqədər müəssisə zəruri mebel və avadanlıqlarla, qrup otaqları isə əyani vəsaitlərlə tam təchiz edilib. Uşaqların istirahəti üçün söhbətgahlar qurulub, oyun attraksionları olan meydança yaradılıb.

Körpələr evi-uşaq bağçasının müdiri Səidə Zahidova bildirib ki, 1969-cu ildə tikilən köhnə bağça binası istifadəyə yararsız olduğundan yeni binaya ehtiyac yaranmışdı. Heydər Əliyev Fondu tərəfindən inşa olunan yeni körpələr evi-uşaq bağçasında uşaqlar altı qrupda təlim-tərbiyə prosesinə cəlb olunacaqlar.

Bundan başqa, Şamaxı rayonunun Göylər kəndində yeni inşa olunan körpələr evi-uşaq bağçasının tikintisinə Heydər Əliyev Fondu tərəfindən 2025-ci ildə başlanılıb. Məktəbəqədər təhsil müəssisəsi zəruri mebel və avadanlıqlarla, qrup otaqları əyani vəsaitlərlə tam təchiz edilib. Həyətyanı sahədə söhbətgahlar, uşaq əyləncə qurğuları ilə təmin edilmiş meydança inşa olunub.

160 uşaq yerlik körpələr evi-uşaq bağçasında qızlar və oğlanlar üçün yataq otaqları, qrup otaqları, musiqi və gimnastika zalları, mətbəx, yeməkxana, tibb və digər inzibati və texniki otaqlar yaradılıb. Körpələr evinin həyətyanı sahəsində abadlıq və yaşıllaşdırma işləri aparılıb, asfalt və qazon örtüyü döşənib, dekorativ kol və ağaclar əkilib, müasir işıqlandırma sistemləri quraşdırılıb.


Məktəbəqədər təhsil müəssisəsinin müdiri Aygün Mikayılova bildirib ki, 7750 nəfər sakini olan kənddə 55 nəfərlik köhnə uşaq bağçası var. Lakin təmirsiz və yararsız olduğundan Heydər Əliyev Fondu tərəfindən yenisi inşa olundu. Körpələr evi-uşaq bağçası 3 qrupdan ibarətdir: 2-3 yaş, 3-4 yaş və 4-5 yaş. Məktəbəqədər təhsil müəssisəsinin 17 nəfərlik heyəti var ki, onlardan 12-si texniki, 5-i isə pedaqoji işçidir.

Qeyd edək ki, ölkəmizdə yeni uşaq tərbiyə müəssisələrinin inşası, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulması ilə bağlı həyata keçirilən Dövlət proqramları ilə yanaşı, Heydər Əliyev Fondu da fəaliyyətində bu sahəni daim diqqətdə saxlayır. 2014-cü ildən bəri Fond “Məktəbəqədər təhsil müəssisələrinin inkişafı” proqramını həyata keçirərək uşaqların təlim-tərbiyəsinə, onların bilikli və savadlı yetişmələrinə öz töhfəsini verir. Proqramın icrası paytaxt Bakı ilə yanaşı, regionları da əhatə edir. Həmin regionlar arasında Şamaxı da yer alır. Ümumiyyətlə, son illərdə Şamaxıda bir sıra yeni körpələr evi-uşaq bağçaları, məktəblər inşa edilərək istifadəyə verilib.

AZƏRTAC

Azərbaycan və Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 11-ci iclası keçirilib

Gürcüstanın Kaxeti bölgəsinin Siqnaxi şəhərində Baş nazirlər Əli Əsədov və İrakli Kobaxidzenin sədrliyi ilə Azərbaycan Respublikası və Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 11-ci iclası keçirilib.



Görüşdə iki ölkə arasında strateji tərəfdaşlığın inkişaf perspektivləri, ticarət-iqtisadi və investisiya əlaqələrinin genişləndirilməsi, enerji, nəqliyyat-tranzit, kənd təsərrüfatı, ekologiya və mədəni-humanitar sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

Bildirilib ki, cari ilin ilk doqquz ayında iki ölkə arasında ticarət dövriyyəsi 42 faiz artaraq ötən ilin ümumi göstəricisini üstələyib və 1 milyard ABŞ dollara yaxınlaşıb.

Baş nazir Əli Əsədov çıxışı zamanı mədəni-humanitar sahənin hər zaman olduğu kimi əməkdaşlığın əsas istiqamətlərindən biri olaraq qaldığını vurğulayıb.

"İki ölkədə yaşayan azərbaycanlı və gürcü icmaları münasibətlərin inkişafında xüsusi rol oynayırlar. Onların ana dilində təhsil imkanlarının təmin olunması və müvafiq məktəblərin fəaliyyəti xalqlarımız arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir”, - deyə hökumət başçısı əlavə edib.

Elm və təhsil nazirinin müavini Mərkəzi Çağırış Komissiyasının iclasında iştirak edib

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Aparatında müddətli həqiqi hərbi xidmətə oktyabr çağırışının gedişatı ilə bağlı Mərkəzi Çağırış Komissiyasının iclası keçirilib.



Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi general-mayor Mürsəl İbrahimovun sədrliyi ilə keçirilən iclasda elm və təhsil nazirinin müavini Firudin Qurbanov da iştirak edib. İclasda Azərbaycan Prezidentinin “Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Sərəncamının icra vəziyyəti müzakirə olunub.

Dövlət Xidməti tərəfindən 2026-cı ilin oktyabr çağırışının uğurla icra edilməsi və Silahlı Qüvvələrin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə keyfiyyətlə komplektləşdirilməsi məqsədilə zəruri işlərin görüldüyü diqqətə çatdırılıb.

Qeyd edək ki, Nazirlər Kabinetinin müvafiq Qərarı ilə yaradılmış Mərkəzi Çağırış Komissiyası vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması ilə bağlı rayon (şəhər) çağırış komissiyalarına rəhbərlik və onların fəaliyyətinə nəzarəti həyata keçirir. Mərkəzi Çağırış Komissiyasında 15 dövlət qurumu təmsil olunur.

İclasın sonunda gündəlikdə olan məsələlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

ADA Məktəbində xeyriyyə məqsədli “Məhsul bayramı” təşkil edilib

ADA Universitetinin nəzdində fəaliyyət göstərən ADA Məktəbində ənənəvi Payız festivalı — “Məhsul bayramı” təşkil olunub. Festivalda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, eləcə də dövlət və hökumət rəsmiləri, tərəfdaş şirkətlərin nümayəndələri və ictimaiyyət nümayəndələri iştirak ediblər.





ADA Məhsul bayramı çərçivəsində Heykəltaraşlıq Simpoziumunun yekunu olaraq, ADA Məktəbində üç yeni heykəltaraşlıq əsərinin açılışı keçirilib. Əsərlərin müəllifləri Azərbaycan heykəltaraşları Kamran Əsədov, Müşfiq Heydərov və İmran Mehdiyevdir. Layihənin əsas məqsədi məktəbliləri yaradıcılıq prosesinə cəlb etmək, onların ideya və təxəyyüllərini heykəllərin ilkin eskizlərinin hazırlanmasında əks etdirmək olub.

Tədbirin əsas məqsədi şagird və tələbələrdə məsuliyyətli vətəndaşlıq duyğusunu formalaşdırmaq, milli-mənəvi dəyərləri təbliğ etmək, xeyriyyəçilik ənənələrini yaşatmaq və gənc nəsli erkən yaşlardan cəmiyyət üçün faydalı şəxsiyyətlər kimi yetişdirməkdir.

Tədbir bədii proqramla davam edib.

ADA Məktəbinin, Q.Əliyeva adına 3 nömrəli Uşaq İncəsənət Məktəbinin, F.Əmirov adına 6 nömrəli 11 illik Uşaq İncəsənət Məktəbinin, həmçinin 24 və 33 nömrəli 11 illik musiqi məktəblərinin şagirdlərinin hazırladıqları musiqi, rəqs və yaradıcı çıxışlar festivala xüsusi bayram əhvali-ruhiyyəsi qatıb.

Tədbir çərçivəsində ADA Məktəbinin şagirdlərinin və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələrinin əl işlərindən, eləcə də tərəfdaş şirkətlərin məhsullarından ibarət xeyriyyə sərgi-satışı təşkil olunub. Sərgi-satışdan əldə edilən vəsait təhsilyönümlü sosial layihələrin həyata keçirilməsinə yönəldiləcək.

Qeyd edək ki, ötən il keçirilən “Məhsul bayramı”nda toplanmış 27 min 309 manat vəsait hesabına beş sosial layihə — “Zəfər Teatrı”, “Hekayələr”, “Qızlar evi”, “Qonşuluq (Şəhərsalma)” və “Qala Cəmiyyəti” uğurla reallaşdırılıb. Əməkdaşlıq, yaradıcılıq, empatiya, psixoloji rifah və peşəyönümlü bacarıqların inkişafını əhatə edən bu layihələrdən ümumilikdə 600 nəfər faydalanıb. Festivalın əsas və daimi tərəfdaşı olan “Veysəloğlu” Şirkətlər Qrupu və ona daxil olan bizneslər — “Veysəloğlu Distribusiya”, “Ulduz”, “Araz” və “OBA” marketlər şəbəkələri, “Xonça”, “Veysəloğlu-Rossmann”, “Decoliv”, “O to Go” və “Entree” tədbirə yaxından dəstək göstəriblər.

Bayramda ölkəmizin müxtəlif bölgələrində yetişdirilən meyvə-tərəvəz, çörək və şirniyyat məhsulları, digər yerli istehsal nümunələri, eləcə də qeyri-qida malları satışa çıxarılıb.

Tədbirin təşkilati dəstəkçiləri sırasında “Azərpambıq”, “Təmiz Şəhər”, “AZ Projects GROUP” və “Liv Bona Dea Hospital” yer alıb.

AZƏRTAC

Doktorantların və Gənc Tədqiqatçıların Respublika Elmi Konfransı (NASCO29) keçirilib

Naxçıvan Dövlət Universitetinin ev sahibliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə “Şəhərsalma və Memarlıq İli”nə həsr olunmuş Doktorantların və Gənc Tədqiqatçıların Respublika Elmi Konfransının (NASCO29) açılış mərasimi keçirilib.





Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını ifadə ediblər. Sonra qonaqlar Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Heydər Əliyev Sarayında baş tutan açılış mərasimində çıxış edən elm və təhsil nazirinin müavini İdris İsayev konfransın gənc tədqiqatçılar üçün elmi yeniliklərin müzakirəsi, yeni elmi əlaqələrin qurulması baxımından əhəmiyyətini vurğulayıb. İdris İsayev Prezident İlham Əliyev tərəfindən elm, təhsil və innovasiyanın ölkəmizdə inkişafın əsas istiqamətlərindən biri kimi müəyyənləşdirildiyini bildirib. Rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılmasının, elmin iqtisadiyyat və sənaye ilə əlaqələndirilməsinin vacibliyi qeyd edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində elmin inkişafının xüsusi yer tutduğunu bildirib, ölkəmizin sosial-iqtisadi inkişafında və rifahın təmin olunmasında elmin mühüm rolunu qeyd edib. Regionda formalaşan yeni reallıqların və çağırışların elmi ictimaiyyət, xüsusilə doktorantlar və gənc tədqiqatçılar qarşısında yeni vəzifələr irəli sürdüyünü diqqətə çatdırıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev isə universitetin NASCO 29-a ev sahibliyi etməsindən məmnunluğunu ifadə edib, konfransın ölkədə elmi potensialın bir araya gətirildiyi ən geniş platformalardan biri olduğunu bildirib.

Konfransa 123 elm və təhsil müəssisəsindən 1627 elmi iş təqdim olunub, elmi və texniki komitələrin qiymətləndirməsindən sonra 1382 doktorant, dissertant və gənc tədqiqatçı tərəfindən yazılmış 1028 elmi iş qəbul edilib.

Daha sonra “Dövlət Proqramı” xətti ilə dünyanın nüfuzlu universitetlərində doktorantura təhsili alan azərbaycanlı gənc tədqiqatçıların çıxışlarından ibarət videoçarx nümayiş olunub.

Tədbir bədii hissə ilə davam edib.

Parçalanmış dünyada humanitar elmlərin missiyası

AMEA-da Akademik Forum keçirilib

Oktyabrın 27-də Azərbaycan Milli Elmlər Akademiyasında VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində UNESCO-nun Dinlərarası Dialoq və Mədəniyyətlərarası Anlaşma üzrə UNITWIN Şəbəkəsinin Akademik Forumunun açılışı baş tutub.





"Parçalanmış dünyada humanitar elmlərin missiyası" mövzusunda keçirilən Akademik Forumun açılış mərasimində AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, mədəniyyət nazirinin müavini Səadət Yusifova, Avstraliyanın Deakin Universitetinin Mədəni Müxtəliflik və Sosial Ədalət üzrə UNESCO kafedrasının rəhbəri professor Fateh Mansouri, Asiya Elmlər Akademiyaları və Cəmiyyətləri Assosiasiyasının prezidenti professor Ahmet Nuri Yurdusev, UNESCO-nun mədəniyyətlərarası dialoq üzrə mütəxəssisi Bram Van Haver, o cümlədən millət vəkilləri, ictimaiyyət nümayəndələri, AMEA-nın Rəyasət Heyətinin üzvləri, elmi müəssisə və təşkilatların əməkdaşları və aidiyyəti şəxslər iştirak ediblər.

Forumu giriş nitqi ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxışında Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafına verdiyi töhfələrdən, ölkəmizin multikulturalizm təcrübəsindən və qlobal həmrəyliyin təmin olunmasında dialoqun vacibliyindən danışıb.

AMEA rəhbəri bildirib ki, Forum həm də dünya təcrübəsinin öyrənilməsi, müxtəlif ölkələrin nümayəndələri, alimlər, mədəniyyət və ədəbiyyat xadimləri arasında fikir mübadiləsinin aparılması baxımından mühüm platformadır. Akademik İsa Həbibbəyli vurğulayıb ki, tədbir çərçivəsində keçirilən müzakirələr müasir dünyanın daha dərindən dərk edilməsinə, qarşılıqlı anlaşmanın gücləndirilməsinə və qlobal həmrəyliyin təşviqinə töhfə verəcək.

Elmin də bu prosesdə mühüm rol oynadığını deyən AMEA rəhbəri vurğulayıb ki, elmi əməkdaşlıq mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına, ortaq dəyərlərin müəyyənləşdirilməsinə, sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edir. Akademik İsa Həbibbəyli bildirib ki, Azərbaycan Milli Elmlər Akademiyası və alimlərimiz bu missiyanın məsuliyyətini dərk edir və bu sahədə ölkəmizdə aparılan dövlət siyasətinə, dünyada gedən proseslərin elmi şəkildə dəyərləndirilməsinə özünün töhfəsini verəcəkdir.

Tədbirdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edərək müasir dünyada etnik və dini münaqişələrin, terrorizmin və zorakılığın mədəniyyətlərarası dialoqun inkişafına ciddi maneələr yaratdığını bildirib. O, belə bir şəraitdə qarşılıqlı anlaşmanın, etimadın, əməkdaşlığın və davamlı sülhün təmin olunmasında elm və təhsilin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

"Təhsil yalnız bilik ötürmək deyil, həm də müstəqil və tənqidi düşünmək, məlumatları təhlil etmək, fərqli mövqeləri qiymətləndirmək və əməkdaşlıq etmək bacarıqlarını formalaşdırmaq məqsədi daşıyır", — deyə Firudin Qurbanov qeyd edib. Nazir müavininin sözlərinə görə, məlumatsızlıq, tarixi və dini faktların manipulyasiyası münaqişələrin yaranmasına zəmin yaradan amillərdəndir. Elm və təhsilə əsaslanan mədəniyyətlərarası və dinlərarası dialoq isə qlobal gərginliyin azaldılması və davamlı sülhün qurulması üçün mühüm vasitədir.

Azərbaycanın təhsil siyasətinin prioritetlərindən danışan Firudin Qurbanov insan potensialının inkişafı, müasir bacarıqların formalaşdırılması və təhsil sisteminin rəqəmsal transformasiyasının bu siyasətin əsas istiqamətləri olduğunu söyləyib. Hazırda ölkənin təhsil müəssisələrində 2 milyondan çox təhsilalanın və 150 minə yaxın təhsilverənin olduğunu bildirən nazir müavini bu göstəricilərin təhsilin cəmiyyətin dəyərlərinin və düşüncə tərzinin formalaşmasındakı əhəmiyyətini nümayiş etdirdiyini diqqətə çatdırıb.

O, Azərbaycanın tarixən müxtəlif etnik və dini qrupların dinc yaşadığı məkan olduğunu vurğulayaraq, ölkəmizdə milli azlıqların mədəni irsinin və ana dilinin qorunması üçün müvafiq imkanların yaradıldığını bildirib. Həmçinin dünyanın bir sıra ölkələrinin ali təhsil müəssisələrində "Azərbaycan multikulturalizmi" və "Multikulturalizmə giriş" fənlərinin tədrisinin ölkəmizin təcrübəsinin beynəlxalq səviyyədə öyrənilməsinə və müxtəlif multikulturalizm modellərinin müqayisəli təhlilinə şərait yaratdığını qeyd edib.

Firudin Qurbanov çıxışında rəqəmsal texnologiyaların və süni intellektin mədəniyyətlərarası dialoqa təsirinə də toxunub. Bildirib ki, sosial şəbəkələr, mesajlaşma platformaları və süni intellekt qlobal ünsiyyətin xarakterini dəyişdirərək müxtəlif mədəniyyətlərin təmsilçiləri arasında əlaqələr üçün yeni imkanlar yaradır. Bu proseslərin öyrənilməsi mədəni, sosial və texnoloji yanaşmaların əlaqəli şəkildə araşdırılmasını tələb edir.

Dünyada müharibələrin və geosiyasi qarşıdurmaların davam etdiyi bir dövrdə Bakıda keçirilən VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətini vurğulayan Firudin Qurbanov gələcək nəsillər naminə sülhə, dialoqa, milli və bəşəri həmrəyliyə çağırışların xüsusi aktuallığa malik olduğunu bildirib. O, dini ayrı-seçkilik və qarşıdurma əvəzinə qarşılıqlı hörmət, humanizm və sevgi prinsiplərinin təşviqinin vacibliyini qeyd edib.

Sonra çıxış edən mədəniyyət nazirinin müavini Səadət Yusifova hazırda dünyada qütbləşmə, münaqişələr və qarşılıqlı etimad böhranının artdığı bir şəraitdə mədəniyyətlərarası dialoqun əhəmiyyətini qeyd edib. Vurğulayıb ki, dialoqun inkişafı üçün siyasi və diplomatik təşəbbüslərlə yanaşı, elmi tədqiqatlara da xüsusi önəm verilməlidir. O, humanitar və sosial elmlərin cəmiyyətlərarası münasibətlərin öyrənilməsinə, stereotiplərin aradan qaldırılmasına və sosial etimadın möhkəmləndirilməsinə mühüm töhfə verdiyini diqqətə çatdırıb.

Səadət Yusifova Azərbaycanın mədəniyyətlərarası dialoq sahəsində beynəlxalq təşəbbüslərinə toxunaraq, Prezident İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə əsası qoyulan "Bakı Prosesi"nin (Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu) müxtəlif ölkələri, beynəlxalq təşkilatları və elmi ictimaiyyəti qarşılıqlı anlaşma və əməkdaşlıq ətrafında birləşdirən mühüm platforma olduğunu söyləyib. O, "Bakı Prosesi"nin təcrübəsinin akademik müstəvidə daha sistemli şəkildə araşdırılması, nəticələrinin elmi əsaslarla qiymətləndirilməsi və beynəlxalq tədqiqatlarda geniş işıqlandırılmasının vacibliyinə diqqət çəkib.

Çıxışında rəqəmsal transformasiya proseslərinin mədəniyyətlərarası dialoq üçün yaratdığı imkanlar və çağırışları da qeyd edən Səadət Yusifova bildirib ki, texnologiyalar mədəni irsin qorunmasına və biliklərin yayılmasına xidmət etməli, eyni zamanda az təmsil olunan dillərin və mədəniyyətlərin rəqəmsal mühitdə görünürlüyünün artırılmasına dəstək verməlidir. O, bu istiqamətdə universitetlərin, tədqiqatçıların və dövlət qurumlarının əməkdaşlığının vacibliyini qeyd edib.

Səadət Yusifova çıxışının sonunda Forumun nəticələrinin konkret təşəbbüslərə, birgə tədqiqatlara və yeni tərəfdaşlıqlara çevriləcəyinə, elmi müzakirələrin dövlət siyasətində və təhsil proqramlarında əksini taparaq cəmiyyətin davamlı inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib, tədbirin işinə uğurlar arzulayıb.

Sonra çıxış edən Avstraliyanın Deakin Universitetinin Mədəni Müxtəliflik və Sosial Ədalət üzrə UNESCO kafedrasının rəhbəri professor Fateh Mansouri qeyd edib ki, parçalanmış dünyada ortaq gələcəyin qurulması üçün mədəniyyətlərarası dialoqun rolu böyükdür və bu mənada Azərbaycanın təşkil etdiyi VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu xüsusi əhəmiyyət daşıyır.

Fateh Mansourinin sözlərinə görə, mədəniyyətlərarası dialoq yalnız fikir mübadiləsi deyil, həm də cəmiyyətləri parçalayan səbəblərin tənqidi təhlili üçün mühüm platformadır. Professor vurğulayıb ki, effektiv mədəniyyətlərarası yanaşma mədəni müxtəlifliyə hörməti bərabər hüquqlar və cəmiyyətin həyatında mənalı iştirakla birləşdirməlidir.

Çıxış edən Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Assosiasiyasının prezidenti professor Əhməd Nuri Yurdusev, UNESCO-nun mədəniyyətlərarası dialoq üzrə mütəxəssisi Bram Van Haver mədəniyyətlərarası dialoqun davamlılığının qarşılıqlı tanıma, bərabərlik, hörmət və zorakılığın minimuma endirilməsi prinsiplərindən asılı olduğu vurğulanıb. Həmçinin müasir dövrdə miqrasiya, ictimai qütbləşmə və dezinformasiya kimi çağırışlar fonunda dialoqun əhəmiyyəti, elmi araşdırmalarla praktiki siyasət arasında əlaqələrin gücləndirilməsində akademik forumun rolu qeyd edilib.

Açılış mərasimindən sonra Forum öz işini "Mədəniyyətlərarası anlaşma və humanitar elmlərin missiyası" mövzusunda panel iclası ilə davam etdirib.

"Mədəniyyətlərarası dialoq, təhsil və rəqəmsal transformasiya"

Oktyabrın 28-də ADA Universitetində VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Mədəniyyətlərarası dialoq, təhsil və rəqəmsal transformasiya" mövzusuna həsr olunmuş sessiya keçirilib. Sessiyanın açılış hissəsində çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, müasir dövrdə qlobal problemlərin həlli cəmiyyətdə hansı tip insanın formalaşmasından çox asılıdır. Onun sözlərinə görə, müasir tələblərə cavab verən, yüksək mədəniyyətə malik şəxsiyyətin formalaşması üçün zəruri olan milli və bəşəri dəyərlər cəmiyyətə yalnız təhsil vasitəsilə aşılanır.



Nazir müavini müasir dövrdə qlobal problemlərin həllində təhsilin və yüksək mədəniyyətə malik şəxsiyyətin formalaşdırılmasının mühüm rol oynadığını vurğulayıb. O, texnoloji inkişafın, rəqəmsallaşmanın və süni intellektin insanların həyat və düşüncə tərzini dəyişdirdiyini, xüsusilə gənclər üçün yeni imkanlar yaratdığını qeyd edib.

Firudin Qurbanov süni intellektin müxtəlif mədəniyyətlərin tanınması, mədəniyyətlərarası ünsiyyətin inkişafı və qarşılıqlı anlaşmanın gücləndirilməsi baxımından əhəmiyyətinə diqqət çəkib. Bu sahədə tədqiqatların aparılmasının, elm və təhsil yaqlobal sinerjiyə: mədəniyyətlərarası dialoqun yeni paradiqmaları" mövzusunda çıxışında ənənəvi musiqi irsinin rəqəmsal arxivləşdirilməsi, elmi tədqiqi və beynəlxalq səviyyədə tanıdılmasının əhəmiyyətini vurğulayıb. O, milli musiqi ənənələrinin özünəməxsus xüsusiyyətləri qorunmaqla beynəlxalq auditoriyaya çatdırılmasının vacibliyini qeyd edib.

Rektor muğamın beynəlxalq səviyyədə araşdırılmasında elmi əməkdaşlığın roluna toxunaraq birgə tədqiqat və yaradıcılıq layihələrinin inkişaf etdirilməsinin, beynəlxalq əməkdaşlığın ali musiqi təhsilinə inteqrasiyasının əhəmiyyətini diqqətə çatdırıb.

Elnur Əliyev, həmçinin müəllimlərin rəqəmsal bacarıqlarına dair minimum tələblərin müəyyənləşdirilməsinin və mədəniyyətlərarası dialoq səriştələrinin qiymətləndirilməsi üçün müvafiq vasitələrin hazırlanmasının əhəmiyyətini qeyd edib. PISA 2029 beynəlxalq qiymətləndirməsinin şagirdlərin media və süni intellekt savadlılığının müəyyənləşdirilməsi, eləcə də təhsil standartlarının təkmilləşdirilməsi baxımından imkanlar yaradacağını diqqətə çatdırıb.

"Süni intellekt dövründə mədəni suverenlik: gələcək nəsli kimin dəyərləri formalaşdıra-



naşmalarının inteqrasiyasının vacibliyini vurğulayıb.

Nazir müavini, həmçinin "Dialoq — elm — təhsil" vəhdətinin sülh təşəbbüslərinin real sosial layihələrə çevrilməsinə, cəmiyyətdə qarşılıqlı hörmətin və davamlı etimadın möhkəmləndirilməsinə töhfə verdiyini bildirib.

Çıxış edən Avstraliyanın Deakin Universitetinin Mədəni Müxtəliflik və Sosial Ədalət üzrə UNESCO kafedrasının rəhbəri, professor Fateh Mansouri müasir dünyada ekstremizm, populizm, irqçilik və ayrı-seçkilik kimi çağırışların aradan qaldırılmasında təhsilin mühüm rolunu vurğulayıb. O, mədəni müxtəlifliyin daha çox müşahidə olunduğu müasir cəmiyyətdə şagirdlərin hazırlanmasının, müəllimlərin pedaqoji yanaşmalarının təkmilləşdirilməsinin və təhsil məzmununun yenilənməsinin vacibliyini qeyd edib.

Professor qarşılıqlı etimadın, ictimai həmrəyliyin və ədalətin sosial inkişaf, sülh və fikir ayrılıqlarının dinc yolla həlli baxımından əhəmiyyətinə diqqət çəkib. Həmçinin süni intellekt və rəqəmsal transformasiyanın yaratdığı imkanlardan istifadə etməklə təhsillə cəmiyyətin ehtiyacları arasında əlaqənin gücləndirilməsinin vacibliyini bildirib.

Daha sonra ADA Universitetinin dosenti Anar Vəliyevin moderatorluğu ilə ilk panel keçirilib.

Panel çərçivəsində Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla "Mədəniyyətlərarası ünsiyyət təhsilin inkişaf faktorlarından biri kimi" mövzusunda çıxış edib. O, multikulturalizmin Azərbaycan xalqının tarixində, mədəniyyətində və ədəbiyyatında dərin köklərə malik olduğunu bildirib. Fərqli mədəniyyətlərə hörmət və onların qəbul edilməsi ənənəsinin xalqımızın mənəvi dəyərlərində öz əksini tapdığını vurğulayıb. Rektor Azərbaycanın multikulturalizm modelinin beynəlxalq səviyyədə tanındığını, müxtəlif xalqlar, gənclər və elm adamları arasında əlaqələrin inkişafına, mədəniyyətlərarası dialoqun güclənməsinə xidmət etdiyini qeyd edib.

Azərbaycan Milli Konservatoriyasının rektoru Kamilə Dadaş-zadə "Milli mədəniyyətdən Həmçinin milli musiqi irsinin qorunması ilə onun müasir incəsənət istiqamətləri ilə əlaqələndirilməsinin bir-birini tamamlamalı olduğunu bildirib.

Fransanın Lion Katolik Universitetinin beynəlxalq hüquq professoru Roje Kude "Yaddaş, mədəniyyətlər və mədəniyyətlərarası əlaqələr" mövzusunda çıxışında mədəni müxtəlifliyə hörmətin beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasında, fundamental insan hüquqlarının təşviqində və cəmiyyətlər arasında əlaqələrin gücləndirilməsində əhəmiyyətini vurğulayıb. O, mədəniyyətlərarası dialoqun sülhə, sabitliyə və beynəlxalq təhlükəsizliyə real töhfə verməsi üçün praktik mexanizmlərin müəyyənləşdirilməsinin vacibliyini qeyd edib. Professor, həmçinin hər bir mədəniyyətin bəşəriyyətin ümumi irsinə töhfə verdiyini bildirərək, dünya mədəniyyətləri arasında bərabərhüquqlu əməkdaşlığın və qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinin əhəmiyyətinə diqqət çəkib.

Sessiyanın ikinci hissəsində Avstraliyanın Deakin Universitetinin Mədəni Müxtəliflik və Sosial Ədalət üzrə UNESCO kafedrasının rəhbəri, professor Fateh Mansourinin moderatorluğu ilə panel müzakirəsi keçirilib.

Panel müzakirəsində Təhsil İnstitutunun direktor səlahiyyətlərini müvəqqəti icra edən, elm və təhsil nazirinin müşaviri Elnur Əliyev, Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Nicat Məmmədli və mədəniyyət nazirinin müşaviri Cəsarət Valehov iştirak ediblər.

"Ümumi təhsilin dövlət standartlarının yenilənməsi və burada dialoq və rəqəmsal vətəndaşlıq səriştələri" mövzusunda təqdimatla çıxış edən Elnur Əliyev hazırlanmaqda olan yeni təhsil standartlarında müəllim və şagirdlərin rəqəmsal bacarıqlarının, süni intellekt və media savadlılığının inkişafına xüsusi diqqət yetirildiyini bildirib. O, şagirdlərdə rəqəmsal vətəndaşlıq, mədəniyyətlərarası dialoq, fərqli fikirlərə hörmətlə yanaşmaq, öz mövqeyini əsaslandırmaq və məlumatları tənqidi qiymətləndirmək kimi səriştələrin formalaşdırılmasının caq?" mövzusunda çıxış edən Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Nicat Məmmədli süni intellektin gənclərin düşüncə tərzinə, dünyagörüşünə və milli-mədəni dəyərlərinə təsirinə diqqət çəkib. O, süni intellektin gündəlik həyatın bir hissəsinə çevrildiyini və gənclər üçün yeni informasiya mənbəyi kimi çıxış etdiyini bildirərək, təqdim olunan məlumat və tövsiyələrin onların dəyərlərinin formalaşmasına təsirinin öyrənilməsinin vacibliyini vurğulayıb.

Nicat Məmmədli müxtəlif süni intellekt modellərinin eyni suallara verdiyi cavabların mədəni yanaşmalar baxımından fərqlənə bildiyini qeyd edərək, bu istiqamətdə müqayisəli tədqiqatların aparılmasını və xüsusi qiymətləndirmə mexanizmlərinin yaradılmasını təklif edib. O, əsas məqsədin müəyyən bir mədəni yanaşmanı mütləq doğru hesab etmək deyil, gənclərin süni intellektdən istifadə zamanı müstəqil düşünmək, məlumatları tənqidi qiymətləndirmək və milli-mədəni dəyərlərini qorumaq bacarıqlarını inkişaf etdirmək olduğunu bildirib.

"İncəsənət təhsili rəqəmsal dövrdə: yaradıcılığın inkişafı və mədəniyyətlərin yaxınlaşdırılması" mövzusunda çıxış edən mədəniyyət nazirinin müşaviri Cəsarət Valehov işğaldan azad edilmiş ərazilərdə mədəniyyət və təhsil həyatının yenidən qurulmasının, incəsənət təhsili müəssisələrinin bərpası və inkişafının əhəmiyyətini vurğulayıb. O, doğma yurdlarına qayıdan uşaqların sosial və mədəni həyata inteqrasiyasında yaradıcılıq imkanlarının yaradılmasının, musiqi təhsilinin onların özünəinamının və mənsubiyyət hissinin gücləndirilməsində rolunun vacibliyini qeyd edib.

Cəsarət Valehov, həmçinin rəqəmsal texnologiyaların bölgələr arasında təhsil əlaqələrinin genişləndirilməsi və beynəlxalq əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaratdığını bildirib. Bu istiqamətdə müxtəlif ölkələrlə təcrübə mübadiləsinin və beynəlxalq əməkdaşlığın əhəmiyyətinə diqqət çəkib.

Çıxışlardan sonra sessiya öz işini yekunlaşdırıb.

Bakıda IE Liderlik və İnnovasiya Mərkəzinin açılışı olub







Oktyabrın 27-də Bakıda yüksək səviyyəli nümayəndələrin iştirakı ilə IE Liderlik və İnnovasiya Mərkəzinin açılış mərasimi keçirilib.

Mərkəz Elm və Təhsil Nazirliyinin və İqtisadiyyat Nazirliyinin dəstəyi ilə "PAŞA Holding", SOCAR və İspaniyanın IE Universiteti arasında strateji tərəfdaşlıq çərçivəsində yaradılıb. Mərkəz Azərbaycanda insan kapitalının inkişafını dəstəkləmək, yeni bilik və ideyaların tətbiqini təşviq etmək, liderlik bacarıqlarını gücləndirmək, eləcə də innovasiya və beynəlxalq əməkdaşlıq üçün regional platforma formalaşdırmaq məqsədi daşıyır.

Mərasimin rəsmi açılış hissəsində iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli, elm və təhsil nazirinin müavini Həsən Həsənli, "PAŞA Holding"in Baş icraçı direktoru Cəlal Qasımov, SOCAR-ın vitse-prezidenti Ziba Mustafayeva və IE Universitetinin icraçı prezidenti Santiaqo İniqes de Onsono çıxış ediblər.

Elm və təhsil nazirinin müavini Həsən Həsənli çıxışında mərkəzin yaradılmasını ölkəmizdə gənclərin və mütəxəssislərin bilik və bacarıqlarının artırılması, peşəkar inkişaf imkanlarının genişləndirilməsi istiqamətində mühüm addım kimi qiymətləndirib.

Nazir müavini 2013-cü ildə qəbul olunmuş Təhsilin inkişafı üzrə Dövlət Strategiyasının icrası çərçivəsində təhsilin keyfiyyətinin və əlçatanlığının artırılması sahəsində əldə olunan nailiyyətlərdən danışıb. O, müəllimlərin işə qəbulu, sertifikatlaşdırılması və peşəkar inkişafı sahəsində aparılan islahatlar, şagirdlərin rəqəmsal bacarıqlarının inkişafına yönəlmiş layihələr, həmçinin istedadların erkən yaşlardan aşkarlanması və inkişaf etdirilməsi istiqamətində görülən işlər barədə məlumat verib. Beynəlxalq qiymətləndirmələrin nəticələrinə toxunan Həsən Həsənli PISA 2025-də Bakı üzrə göstəricilərin 2022-ci illə müqayisədə əhəmiyyətli dərəcədə artdığını bildirib.

Ali təhsil sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsindən danışan nazir müavini ölkəmizin ali təhsil müəssisələrinin beynəlxalq reytinqlərdə əldə etdiyi irəliləyişləri qeyd edib. O, Fransız—Azərbaycan Universiteti (UFAZ), İtaliya—Azərbaycan Universiteti və Türkiyə—Azərbaycan Universiteti kimi birgə ali təhsil təşəbbüslərinə, eləcə də yeddi beynəlxalq tərəfdaşla həyata keçirilən ikili diplom proqramlarına diqqət çəkib.

Həsən Həsənli hökumətin ardıcıl fəaliyyətinin güclü istedad bazasının formalaşmasına imkan yaratdığını vurğulayıb. Bildirib ki, bu potensialın inkişaf etdirilməsi müasir iqtisadiyyatın tələblərinə cavab verən gələcək liderlərin, rəhbərlərin və mütəxəssislərin hazırlanmasına zəmin yaradır. Nazir müavini hazırda fəaliyyət göstərən rəhbər və mütəxəssislərin bilik və bacarıqlarının davamlı yenilənməsinin də vacibliyini qeyd edib. Bu istiqamətdə dövlət, biznes və universitetlərin birgə fəaliyyətinin əhəmiyyətini vurğulayan Həsən Həsənli IE Universiteti, "PAŞA Holding" və SOCAR arasında tərəfdaşlığın beynəlxalq təcrübəni yerli ehtiyaclarla əlaqələndirmək üçün mühüm imkanlar yaratdığını bildirib. O, ölkəmizin universitetlərinin və SABAH.City-nin imkanlarından da istifadə etməklə bu məqsədlərə birgə nail olmağın mümkünlüyünü diqqətə çatdırıb.

IE Universitetinin icraçı prezidenti Santiaqo İniqes de Onsono çıxışında sahibkarlıq və innovasiya yanaşmalarını, eləcə də humanitar elmlərin təhsildə dəyişikliklərə təkan verən rolunu texnologiyanın yaratdığı imkanlarla birləşdirməyi hədəflədiklərini bildirib. O, məqsədlərinin Bakı və Azərbaycanla yanaşı, bütün qitədə transformasiyaya təkan vermək olduğunu qeyd edib. Azərbaycanda dəyər yaratmaq və iqtisadi artıma töhfə vermək potensialına malik startapların, şirkətlərin və istedadlı insanların olduğunu vurğulayan universitet rəhbəri təşəbbüsün bu potensialın reallaşdırılmasını sürətləndirməyə xidmət edəcəyini bildirib.

"PAŞA Holding"in Baş icraçı direktoru Cəlal Qasımov isə insan kapitalının inkişafı, bilik və təcrübə mübadiləsi, eləcə də innovativ düşüncə tərzinin təşviqinin uzunmüddətli iqtisadi inkişaf və rəqabət qabiliyyəti baxımından əhəmiyyətini vurğulayıb.

Qeyd edək ki, mərkəzin yaradılmasına dair Anlaşma Memorandumu 28 aprel 2026-cı ildə Elm və Təhsil Nazirliyinin və İqtisadiyyat Nazirliyinin şahidliyi ilə "PAŞA Holding", SOCAR və IE Universiteti arasında imzalanıb.

"Bir məkan, iki hərəkətverici qüvvə: elm və innovasiya"

Oktyabrın 27-də Özbəkistan Respublikasının Daşkənd şəhərində keçirilən "InnoWeek.Uz—2026" Beynəlxalq İnnovativ İdeyalar Həftəsinin rəsmi açılış mərasimində, habelə bu çərçivədə təşkil olunan "Türk Elm və İnnovasiya Günü" tədbirində Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli iştirak edib.





2018-ci ildən Özbəkistan Respublikasında hər il təşkil olunan "InnoWeek" Beynəlxalq İnnovativ İdeyalar Həftəsi bu il "Dəyişən dünya üçün innovasiyalar" şüarı altında keçirilib. "InnoWeek" elmi nailiyyətlərin və innovativ texnologiyaların təqdimatı, elmi nəticələrin kommersiyalaşdırılması, həmçinin beynəlxalq elmi və işgüzar əlaqələrin genişləndirilməsi üçün platformadır.

Beynəlxalq İnnovativ İdeyalar Həftəsi çərçivəsində Özbəkistan Respublikasının Təhsil və Elm Nazirliyi yanında İnnovativ İnkişaf Agentliyinin və Türk Dövlətləri Təşkilatının (TDT) tərəfdaşlığı ilə "Türk Elm və İnnovasiya Günü" təşkil olunub. "Bir məkan, iki hərəkətverici qüvvə: elm və innovasiya" mövzusuna həsr olunan tədbir türk dövlətləri arasında elm və innovasiya sahələrində əməkdaşlığın praktik nəticələrə yönəldilməsi, tədqiqat müəssisələri, innovatorlar və sənaye arasında əlaqələrin gücləndirilməsi məqsədi daşıyıb.

Tədbirdə TDT-yə üzv dövlətlərin müvafiq qurumlarının, ali təhsil və elmi-tədqiqat müəssisələrinin, eləcə də innovasiya sahəsinin nümayəndələri iştirak ediblər.

Tədbirin yüksək səviyyəli panel sessiyasında çıxış edən Mətin Kərimli Azərbaycanda insan kapitalının inkişafı və elmi tədqiqat potensialının gücləndirilməsi istiqamətində görülən işlərdən və əldə olunan nəticələrdən bəhs edib. O, STEAM və rəqəmsal bacarıqların inkişafı, ali təhsildə beynəlxalq tərəfdaşlıqların genişləndirilməsi, Azərbaycan universitetlərinin qlobal reytinqlərdə irəliləyişi, universitetlərin tədqiqat və innovasiya mərkəzləri kimi rolunun gücləndirilməsi, elmi tədqiqat nəticələrinin artımı, eləcə də elm və sənaye arasında əlaqələrin inkişafı məsələlərinə toxunub.

Aparat rəhbəri TDT çərçivəsində elm və təhsil sahələrində əməkdaşlığa xüsusi əhəmiyyət verildiyini vurğulayıb. O bu sahədə mövcud uğurlu əməkdaşlıq təcrübəsinin birgə tədqiqatların, akademik mübadilələrin və elmi əlaqələrin daha da genişləndirilməsi üçün mühüm zəmin yaratdığını qeyd edib.

"Mərkəzi Asiyada vahid təhsil məkanının inkişafı və beynəlxalq əməkdaşlıq"

Aparat rəhbəri beynəlxalq təhsil forumunda iştirak edib

Oktyabrın 28-də Özbəkistan Respublikasının Daşkənd şəhərində keçirilən Mərkəzi Asiya Beynəlxalq Təhsil Forumunda Elm və Təhsil Nazirliyinin aparat rəhbəri Mətin Kərimli iştirak edib.





Forumun açılış mərasimində Özbəkistan Respublikasının təhsil və elm naziri Erkinjon Turdimov çıxış edərək ali təhsil sahəsində regional əməkdaşlığın genişləndirilməsinin, universitetlərarası əlaqələrin gücləndirilməsinin və beynəlxalq tərəfdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Forum çərçivəsində "Mərkəzi Asiyada vahid təhsil məkanının inkişafı və beynəlxalq əməkdaşlıq" mövzusunda keçirilən təhsil nazirlərinin "dəyirmi masa"sında Mərkəzi Asiya ölkələri ilə yanaşı, Azərbaycan, Polşa, Türkiyə, Pakistan, Çex Respublikası və Gürcüstanın nümayəndələri də iştirak ediblər.

"Dəyirmi masa"da çıxış edən aparat rəhbəri Mətin Kərimli təhsil sahəsində regional əməkdaşlığın genişləndirilməsi, ali təhsil müəssisələri arasında əlaqələrin möhkəmləndirilməsi və birgə təşəbbüslərin həyata keçirilməsi məsələlərinə toxunub. O, akademik mobilliyin təşviqi, birgə təhsil proqramlarının və elmi-tədqiqat layihələrinin inkişaf etdirilməsi, eləcə də universitetlər arasında təcrübə mübadiləsinin genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

"Dəyirmi masa" çərçivəsində, həmçinin tələbə və müəllim mübadiləsi, diplom və kvalifikasiyaların qarşılıqlı tanınması, birgə elmi-tədqiqat layihələrinin və qrant proqramlarının təşviqi, təhsilin keyfiyyətinin yüksəldilməsi, eləcə də ali təhsil müəssisələrinin beynəlxalq rəqabət qabiliyyətinin gücləndirilməsi məsələləri müzakirə olunub.

Forumda plenar iclasların, panel sessiyalarının, tematik müzakirələrin, universitetlər və tərəfdaş təşkilatlar arasında ikitərəfli görüşlərin keçirilməsi, habelə əməkdaşlıq sazişlərinin imzalanması nəzərdə tutulub.

İƏT-in Baş katibi Azərbaycanda təqaüdlə təhsil alan xarici tələbələrlə görüşdü





Oktyabrın 28-də İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi İsmail Ould Şeyx Əhməd ölkəmizə rəsmi səfəri çərçivəsində Azərbaycan hökumətinin ayırdığı təqaüdlə Bakıda təhsil alan İƏT-ə üzv dövlətlərin gəncləri ilə görüş keçirib.

Qoşulmama Hərəkatı Gənclər Təşkilatında (QHGT) baş tutan tədbirdə əvvəlcə QHGT-nin Mənzil Qərargahı ilə tanışlıq keçirilib və daha sonra ölkəmizdə təhsil alan İƏT-ə üzv dövlətlərin gəncləri barədə təqdimat nümayiş olunub.

Görüş çərçivəsində təqaüd proqramlarının tələbələrini əhatə edən "İƏT Tələbələr Assosiasiyası - Azərbaycan" təşkilatı tərəfindən İƏT Baş katibinə Azərbaycan hökumətinin İƏT-ə üzv ölkələrin tələbələri üçün təqdim etdiyi təqaüd proqramları haqda məlumat verilib. 2017-2022-ci illər üzrə 41 İƏT ölkəsindən 126 tələbəyə, 2024-2026-cı illər üzrə isə 39 İƏT ölkəsindən 219 tələbəyə Azərbaycan ali təhsil müəssisələrində təhsil almaq imkanı verildiyi qeyd olunub. Ümumlikdə 46 İƏT ölkəsindən 350-yə yaxın gəncin Azərbaycanın təqdim etdiyi təqaüdlərdən faydalandığı vurğulanıb.

Bununla yanaşı, İƏT Gənclər Forumunun Bakıda yerləşən Avrasiya üzrə Regional Mərkəzi (ICYF-ERC) tərəfindən Mərkəzin fəaliyyəti və İƏT ölkələrindən olan tələbələrlə bağlı həyata keçirdiyi fəaliyyətlər barədə təqdimat edilib.

Baş katib İsmail Ould Şeyx Əhməd çıxışında İƏT-in gələcək hədəfləri və perspektivləri, habelə təşkilatın yeni rəhbəri kimi qarşıya qoyduğu məqsədlər və gənclərin bu prosesdəki rolu barədə mühüm məqamlara toxunub. O, İƏT gənclərinə göstərilən xüsusi qayğı və diqqətə, həmçinin təhsil üçün təqaüdlərin ayrılmasına görə Azərbaycan hökumətinə dərin təşəkkürünü bildirib.

İƏT gəncləri arasında əlaqələrin gücləndirilməsi və onların xalqlararası bağların inkişaf etdirilməsi sahəsində fəallığının təşviqi məqsədilə təşkil olunan görüş "İslam dünyasında həmrəyliyin gücləndirilməsində gənclərin mədəni diplomatiya səfirləri kimi rolu" mövzusunda interaktiv sual-cavab sessiyası ilə davam edib. Sessiyada gənclərin mədəniyyətlərarası dialoqun inkişafında və xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsindəki rolu ətrafında müzakirələr aparılıb.

Tədbir ICYF-ERC-nin İdarə Heyətinin sədri Elçin Əsgərovun bağlanış nitqi və xatirə fotosunun çəkilişi ilə başa çatıb.



Fin təhsilinə nə oldu?

Andreas Şleyxer yazır

"XXI əsrin ilk illərində təhsilin gələcəyini görmək istəyənlərin yolu Finlandiyadan keçirdi. Dünyanın müxtəlif ölkələrindən nazirlər, tədqiqatçılar və jurnalistlər bu ölkəyə səfər edir, Finlandiya məktəblərinin uğurunun sirrini öyrənməyə çalışırdılar. Onları maraqlandıran əsas sual bu idi: Finlandiya bizim edə bilmədiyimiz nəyi bacarır?". Bu barədə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Təhsil və bacarıqlar departamentinin direktoru Andreas Şleyxer "Fin təhsilinə nə oldu?" (What happened to Finnish education?) adlı son məqaləsində yazır. A.Şleyxer qeyd edir ki, Finlandiya təhsil modeli bir çox ölkənin arzuladığı nəticələri bir araya gətirirdi: yüksək akademik göstəricilər, şagirdlərin rifahına diqqət, müəllimlərə etimad, məktəblər arasında nəticə fərqlərinin az olması və uşaqlığın fasiləsiz imtahanlara çevrilməməsi. Şagirdlər bir sıra ölkələrdəki yaşıdlarından daha az vaxt sərf etməklə oxuyur, buna baxmayaraq, beynəlxalq qiymətləndirmələrdə yüksək nəticələr göstərirdilər.Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramının (PISA) ilk mərhələlərində Finlandiya oxu, riyaziyyat və təbiət elmləri üzrə dünyada ən yüksək nəticələr göstərən ölkələr sırasında idi və ya ilk yerlərdə qərarlaşırdı. Dünyanın bu uğurun sirrini öyrənmək istəməsi tamamilə təbii idi. Aydındır ki, dünya resept almaq istəyirdi. Ancaq təhsil sistemləri hazır resept vermir. Təhsil sistemləri cəmiyyətlə, texnologiya ilə və insan münasibətləri ilə birlikdə dəyişən mürəkkəb ekosistemlərdir. Andreas Şleyxer Finlandiyanın təcrübəsini təhlil edərək diqqəti məhz bu məqama yönəldir: 2001-ci ilin Finlandiyası ilə 2026-cı ilin Finlandiyası arasında ciddi fərqlər yaranıb.



Müəllimlərin keyfiyyəti hələ də yüksəkdir. Məktəblər yenə də müstəsna dərəcədə yaxşı təchiz olunub. Uşağın hərtərəfli inkişafına yönəlmiş təhsil öhdəliyi təhsil mədəniyyətində dərindən kök salıb. Finlandiya məktəblərində hələ də emalatxanalar, laboratoriyalar, musiqi otaqları, idman qurğuları və praktik təlim məkanları mövcuddur. Bunlar bizə xatırladır ki, təhsilin məqsədi yalnız test nəticələri əldə etmək deyil, insan yetişdirməkdir.

Bununla belə, şagirdlərin təlim nəticələri nəzərəçarpacaq dərəcədə aşağı düşüb. Bu geriləmə COVID-19 pandemiyası ilə başlamayıb və Finlandiyanın uzun illər ərzində qazandığı beynəlxalq üstünlüyün əhəmiyyətli hissəsi itib. A.Şleyxer hesab edir ki, bu vəziyyəti Finlandiyanın uğurlu təhsil prinsiplərindən sadəcə imtina etməsi ilə izah etmək düzgün olmazdı. Müəllimlərin peşəkarlığı və məktəblərin maddi-texniki imkanları birdən-birə yox olmayıb. Dəyişən, daha çox, təhsilin fəaliyyət göstərdiyi mühitdir.

Dəyişən dünya, yeni təhsil çağırışları

Son onillikdə texnologiyanın sürətli inkişafı, sosial medianın uşaqların həyatına nüfuz etməsi, smartfonlardan asılılığın artması, məktəblərin və siniflərin daha mürəkkəb xarakter alması təhsil prosesinə ciddi təsir göstərib. Texnologiya sinif otaqlarına daxil olub. Sosial media uşaqların həyatına nüfuz edib, smartfonlar isə onların diqqətini zəbt edib. Məktəblər daha böyük və mürəkkəb strukturlara çevrilib. İnklüzivlik yeni imkanlarla yanaşı, müəllimlər üçün çətin tələblər də yaradıb. Bunun nəticəsi olaraq məktəbdaxili şagird nəticələrinin dəyişkənliyi 23 faiz artıb.

Fənlərarası və hərtərəfli kurikulum yaratmaq cəhdləri bəzi hallarda çaşqınlıq doğurub, müəllimlərin məsuliyyət dairəsini genişləndirib. Şagirdlərin rifahına diqqət artdıqca akademik tələbkarlığın arxa plana keçməsi riski də yaranıb.

Digər mühüm dəyişiklik məktəblə ailə arasındakı münasibətlərdə baş verib. Ailələr və valideynlik yanaşmaları dəyişib. Məktəblərlə ailələr arasında ənənəvi olaraq güclü olan tərəfdaşlıq zəifləməyə başlayıb.

A.Şleyxerin qeyd etdiyi məlumatlara görə, bunun göstəricilərindən biri övladlarının təlim irəliləyişini müəllimlərlə təşəbbüskar şəkildə müzakirə edən valideynlərin payının 21 faiz azalmasıdır.

A.Şleyxerə görə, "bu dəyişikliklərin heç biri ayrılıqda Finlandiyanın yaşadığı geriləməni izah etmir. Lakin onların məcmusu bunu izah edə bilər. Maşında bir dişli çarxı dəyişsəniz, digər çarxların necə hərəkət edəcəyini proqnozlaşdıra bilərsiniz. Təhsil sistemində bir elementi dəyişdikdə isə ailələr buna reaksiya verir, müəllimlər uyğunlaşır, şagirdlərin davranışları dəyişir, siyasi prioritetlər yenilənir və bütövlükdə cəmiyyət də dəyişir".

O qeyd edir ki, təhsil mühəndislikdən daha çox bağçılığa bənzəyir. Torpaq da vacibdir, iqlim də, bağban da. Lakin heç kimin nəzarət edə bilmədiyi qüvvələr də öz təsirini göstərir. "Məhz buna görə Finlandiyanın təcrübəsi yalnız finləri deyil, başqa ölkələrin insanlarını da maraqlandırmalıdır. Əsas sual sadəcə "Finlandiya təhsilinin başına nə gəldi?" deyil, daha doğrusu, "XXI əsrdə uşaqlıq, öyrənmə və məktəb həyatı necə dəyişir?" sualıdır", - deyə A.Şleyxer bildirir.

Bu gün informasiya boldur, diqqət isə qıtlaşıb

A.Şleyxer diqqəti bir məqama çəkir: "Cəmi dörd tarixi nəzərdən keçirək. 2004-cü il: Facebook meydana çıxır. 2007-ci il: "İPhone" təqdim olunur. 2020-ci il: COVID-19 pandemiyası dünyanın böyük bir hissəsində məktəblərin bağlanmasına səbəb olur. 2022-ci il: generativ süni intellekt gündəlik həyatımıza daxil olur. Bu tarixlərin hər biri texnoloji və ya tarixi dönüş nöqtəsindən daha artıq məna daşıyır. Onlar birlikdə gənclərin böyüdüyü mühitin necə dəyişdiyini göstərir".

Onun sözlərinə görə, "bəşər tarixinin böyük bir hissəsində informasiya qıt, diqqət isə bol olub. Bu gün informasiya boldur, diqqət isə qıtlaşıb. Bu, bəlkə də, təhsilin indiyədək üzləşdiyi ən mühüm dəyişikliklərdən biridir. Məktəb uşağa noutbuk verə bilər, lakin həmin noutbukun onun diqqətini cəmləməsinə kömək edəcəyinə zəmanət verə bilməz. Dünyanın bütün biliklərinə çıxış imkanı yarada bilər, amma maraq və öyrənmək həvəsi formalaşdıracağına zəmanət verə bilməz. Çətinlikləri aradan qaldıra bilər, lakin müstəqil fəaliyyət göstərmək bacarığını və əzmkarlığı süni şəkildə yarada bilməz. Öyrənmə prosesini daha əyləncəli edə bilər, amma şagirdlərin əyləncəli olmayan işləri də görməyi öyrənəcəyinə təminat verə bilməz".

OECD rəsmisi qeyd edir ki, süni intellekt məsələni daha da mürəkkəbləşdirdi. İlk dəfədir ki, şagirdlərin əllərinin altında yalnız informasiya axtarıb tapmaq deyil, onu ümumiləşdirmək, izah etmək, tərcümə etmək, onun haqqında mətn yazmaq və getdikcə daha çox hallarda onunla məntiqi mühakimə aparmaq imkanına malik texnologiyalar var. Bu, bəşəriyyətin yaratdığı ən böyük öyrənmə sürətləndiricisinə çevrilə bilər. Eyni zamanda, öyrənmə prosesini zəiflədən ən böyük qısa yol da ola bilər. Bu iki ehtimal arasındakı fərqi texnologiyanın özü deyil, təhsil müəyyən edəcək.

"Şagirdlərin rifahı vacibdir. Lakin rifah gəncləri öyrənmənin ayrılmaz hissəsi olan çətinliklərdən qorumaq demək olmamalıdır. Əksinə, hansı bacarıqları inkişaf etdirməyə çalışdığımızı və texnologiyanın həmin bacarıqları nə zaman gücləndirdiyini, nə zaman isə onları inkişaf etdirmək üçün tələb olunan səyi əvəz etdiyini müəyyənləşdirmək daha çətin suallar verməyimizi tələb edir.

Sürətə, rahatlığa və səmərəliliyə aludə olmuş bir dövrdə hər çətinliyi aradan qaldırmaq lazım deyil. Çətinliklə mübarizə məhsuldardır, uğursuzluq isə inkişaf üçün fürsətdir. Bəzən yavaşlıq da təhsilin bir hissəsidir. Düzgün sözü axtarmağa, çətin bir abzası anlamağa çalışmağa, arqument qurmağa və ya səhvi düzəltməyə sərf olunan bir neçə dəqiqə səmərəsiz görünə bilər. Halbuki öyrənmə məhz həmin anlarda baş verə bilər. Həlledici sual süni intellektin şagirdlər əvəzinə nə qədər düşünə bilməsi deyil, şagirdlərin özlərinin düşünmə qabiliyyətinə malik insanlara çevrilməsi üçün nə qədər düşünməli olduqlarıdır".

Müəllimləri deyil, təlim mühitini də düşünək

O, qeyd edir ki, məsələnin daha bir tərəfi var: Finlandiyada müəllimlərin keyfiyyəti yüksək səviyyədə qalır, lakin onların dərs dediyi mühit köklü şəkildə dəyişib. Bu, hər yerdə siyasətçiləri və təhsil qərarları verən şəxsləri düşünməyə vadar etməlidir. İllərdir təhsil müzakirələrində müəllimlərin necə təkmilləşdirilməsi sualı ön plandadır. Bəlkə də, öyrənmənin baş verdiyi və yaxşı müəllimlərin çalışdığı şəraiti necə yaxşılaşdırmaq barədə daha çox düşünməliyik.

Müəllimlərin gün ərzində nə qədər vaxtı həqiqətən şagirdlərlə işləməyə qalır? Onların nə dərəcədə real qərarvermə səlahiyyəti var? Onları nə qədər inzibati manea əhatə edir? Məktəblər ailələrin və cəmiyyətin üzərinə düşən məsuliyyətin nə qədərini əsaslı şəkildə öz üzərinə götürə bilər? Məktəblər və sinif otaqları getdikcə daha mürəkkəb və texnologiyaya bağlı olduqca, öyrənmənin təməlində dayanan insani münasibətləri necə qoruya bilərik?

A.Şleyxer qeyd edir ki, 2001-ci ilin Finlandiyasını 2026-cı ildə sadəcə təkrarlamaq mümkün deyil, çünki 2001-ci ilin dünyası artıq mövcud deyil. Eyni zamanda, Finlandiyanın PISA nəticələrinin aşağı düşməsi onun təhsil sahəsində hansısa fundamental səhvə yol verdiyi qənaətinə gəlmək üçün əsas deyil. Vaxtilə dünyanın diqqətini cəlb edən keyfiyyətlərin bir çoxu - peşəkar müəllimlər, sosial etimad, geniş kurikulumlar, güclü dövlət institutları və bərabərliyə sadiqlik - bu gün də mühüm üstünlüklər olaraq qalır.

Keçmiş uğur gələcəyə zəmanət vermir

A.Şleyxerə görə, buradan çıxan nəticə başqadır: keçmişdə qazanılmış uğur gələcəyə zəmanət vermir. Əksinə, uğur çox vaxt uyğunlaşmağı çətinləşdirir. Təhsil sistemi beynəlxalq səviyyədə şöhrət qazandıqda dünənin həll yolları səssizcə sabahın dəyişməz prinsiplərinə çevrilə bilər. Müəyyən sosial və texnoloji mühit üçün yaradılmış təcrübələr həmin mühit dəyişsə də, tətbiq olunmaqda davam edə bilər. Buna görə də ən uğurlu təhsil sistemlərinə yalnız öyrənmək bacarığı deyil, həm də əvvəl öyrəndiklərinin bir qismini yenidən nəzərdən keçirmək və onlardan imtina etmək cəsarəti lazımdır. Hansı prinsiplərin zaman keçsə də əhəmiyyətini qoruduğunu, hansı təcrübələrin isə artıq öz dövrünü başa vurduğunu sorğulamaq vacibdir. Öyrənməni həqiqətən dərinləşdirən yeniliklərlə onun yalnız zahiri görünüşünü müasirləşdirən yenilikləri fərqləndirmək lazımdır. Şagirdlərə qayğı göstərməyin bəzən onlara dəstək olmaq, lakin çox vaxt həm də onlardan daha çox səy və bacarıq tələb etmək demək olduğunu anlamaq lazımdır.

"Finlandiya məhz buna görə hələ də əhəmiyyətlidir. İyirmi beş il əvvəl dünya şimala baxaraq soruşurdu: Finlandiyadan nə öyrənə bilərik? İndi isə sual belədir: Finlandiya və hamımız – baş verən dəyişikliklərdən nə öyrənə bilərik? Bu, daha çətin sualdır və təhsilin gələcəyi baxımından isə daha böyük əhəmiyyət daşıyır", - deyə A.Şleyxer bildirir.

Oruc MUSTAFAYEV

Dövlət Proqramı təqaüdçüsü Oksfordda müəllim oldu

Dünyanın nüfuzlu universitetlərindən birində təhsil almaq böyük hədəfdir. Həmin universitetdə dərs demək, elmi-tədqiqat aparmaq və akademik icmanın həyatında məsuliyyət daşımaq isə tamam başqa mərhələdir. Dövlət Proqramının təqaüdçüsü Nuranə Məmmədova Oksford Universitetində bu üç istiqaməti birləşdirən akademik yola başlayıb. Beynəlxalq münasibətlər üzrə doktoranturanın ikinci ilində təhsilini davam etdirən Nuranə xanım universitetin “Qlobal idarəetmə və diplomatiya” magistratura proqramının müəllim heyətinə daxil edilib, üzvü olduğu kollecin köməkçi dekan vəzifəsinə seçilib. Onun yolunu maraqlı edən təkcə bu uğurları deyil. İqtisadiyyat təhsilindən diplomatiyaya, beynəlxalq təşkilatda rəhbər vəzifədən elmi-tədqiqata uzanan bu yolun arxasında ardıcıl seçimlər, peşəkar təcrübə və böyük hədəflər dayanır. Nuranə Məmmədova ilə müsahibəmizdə həmin yolun görünən tərəflərindən əlavə, qərarlarından, çətinliklərindən və qazandığı təcrübəni gələcəkdə Azərbaycana necə daşımaq istədiyindən danışdıq.



“Hər zaman düşünmüşəm ki, bilik paylaşılmaq üçündür”

— Nuranə xanım, təhsil yolunuz müxtəlif ölkələrdən və fərqli istiqamətlərdən keçib. İstərdim ki, elə söhbətimizə də buradan başlayaq.

— Təhsil yolumun müxtəlif ölkələrdə keçməsi akademik təcrübəmi zənginləşdirməyə kömək edib. Orta təhsilimin bir hissəsini Ukraynada almışam, daha sonra isə təhsilimi Şəmkirdə davam etdirib məktəbi fərqlənmə ilə başa vurmuşam. O dövrdə riyaziyyata xüsusi marağım olduğuna görə ilk seçimim iqtisadiyyat sahəsi oldu. UNEC-ə daxil oldum və sonradan təhsilimi ADAU-da xüsusi istedadlar qrupunda “Dünya iqtisadiyyatı” ixtisası üzrə davam etdirərək bakalavr pilləsini fərqlənmə diplomu ilə başa vurdum.

Lakin iqtisadi proseslərin arxasındakı siyasi qərarlar, danışıqlar prosesi və ictimai çıxışlar da məndə həmişə maraq doğururdu. Buna görə növbəti mərhələdə istiqamətimi genişləndirdim: Türkiyə, Fransa və Almaniyada daxili təqaüd əsasında Avropa və beynəlxalq münasibətlər üzrə magistratura təhsilimi fərqlənmə ilə başa vurdum.

Bir müddət sonra diplomatiya sahəsində daha dərindən ixtisaslaşmaq məqsədilə Oksford Universitetində ikinci magistratura təhsilimə başladım və o ərəfədə dünyanın ən yaxşı 50 tələbəsi siyahısında yer aldım.

Oksfordda magistratura təhsili aldığım müddətdə müəllimlərim mənə doktorantura təhsilimi də burada davam etdirməyi tövsiyə edirdilər. Doktorantura təhsili almaq erkən yaşlardan hədəflərim arasında olsa da, əvvəlcə praktiki təcrübə qazanmağı vacib sayırdım. Beləliklə, magistratura təhsilimdən sonra İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzində diplomat olaraq departament müdiri vəzifəsində çalışdım. Bu vəzifədə qazandığım diplomatik və institusional təcrübə akademik maraqlarımı daha da gücləndirdi. Nəticədə elmi fəaliyyətimi Oksfordda doktorantura səviyyəsində davam etdirməyə qərar verdim.

“Dövlət Proqramının minlərlə tələbənin akademik inkişafına verdiyi töhfəni əvəzolunmaz hesab edirəm”

— Oksfordda doktorantura təhsili almaq hədəfinizə çatmaqda Dövlət Proqramının dəstəyi hansı rol oynadı? Bu proqramın sizə yaratdığı imkanları necə qiymətləndirirsiniz?

— Dövlət Proqramı çərçivəsində xaricdə təhsil imkanlarının yaradılmasını gənclərimizin və ümumilikdə ölkəmizin gələcəyinə yönəlmiş ən mühüm strateji təşəbbüslərdən biri hesab edirəm. Bu baxımdan, Azərbaycan Prezidenti İlham Əliyevin gənclərimizin təhsilinə göstərdiyi diqqəti və onların dünyanın aparıcı universitetlərində təhsil almasına verdiyi dəstəyi xüsusilə yüksək qiymətləndirirəm. Dövlət Proqramı Prezidentimizin ölkəmizdə insan kapitalının inkişafına, yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsinə və gənclərin potensialının reallaşdırılmasına verdiyi önəmin bariz göstəricisidir.

Mən də bu dəstəkdən yararlanan yüzlərlə tələbədən biri olduğum üçün şadam və mənə göstərilən etimadı doğrultmaq məqsədilə təhsil aldığım universitetdə ölkəmizi layiqincə təmsil etməyə çalışıram.

Oksford Universitetində doktorantura təhsili almaq akademik hədəflərimdən biri idi və Dövlət Proqramının dəstəyi bu məqsədimə çatmağımda mühüm rol oynadı. Əlbəttə, belə bir dəstək olmasaydı, təhsilimi davam etdirmək üçün alternativ imkanlar axtarmalı olardım, çünki qarşıma qoyduğum məqsədlərə çatmaqda qərarlıyam. Lakin çox güman ki, bu, daha çətin və uzunmüddətli proses olardı.

Ümumilikdə, Dövlət Proqramının mənim kimi minlərlə tələbənin akademik və peşəkar inkişafına verdiyi töhfəni əvəzolunmaz hesab edirəm.

— Bu gün Oksford Universitetinin “Qlobal idarəetmə və diplomatiya” magistratura proqramının müəllim heyətinə daxil edilmisiniz. Maraqlıdır, bu təklif necə yarandı və seçildiyinizi öyrənəndə nə hiss etdiniz?

— Mən hər zaman düşünmüşəm ki, bilik paylaşılmaq üçündür. Öyrəndiklərimi başqaları ilə bölüşmək məndə həmişə xüsusi həvəs oyadıb. Bu səbəbdən 19 yaşımdan etibarən beynəlxalq təşkilatlarda təlimçi və ekspert kimi fəaliyyət göstərmiş, diplomatlar, universitet müəllimləri, dövlət rəsmiləri, özəl sektor nümayəndələri və tələbələr də daxil olmaqla, müxtəlif peşəkar qruplar üçün təlimlər keçmişəm. Oksfordda doktorantura təhsilimə başlayanda da burada tədris təcrübəmi genişləndirməyi qarşıma məqsəd qoymuşdum.

“Qlobal idarəetmə və diplomatiya” magistratura proqramı haqqında əvvəllər çox eşitmişdim. Bu, Oksford Universitetinin nüfuzlu magistratura proqramlarından biridir və məzunları arasında müxtəlif ölkələrdə dövlət rəhbəri, nazir, diplomat kimi, eləcə də dövlət qurumlarında və beynəlxalq təşkilatlarda yüksək vəzifələrdə çalışan şəxslər yer alır.

Proqramın tədris komandasına yeni əməkdaş axtarıldığını mənə təhsil aldığım departament bildirdi. Açığı, əvvəlcə müraciət etməkdə tərəddüd etdim, çünki fərqli departamentdən olduğum üçün seçilmək ehtimalımın daha aşağı olduğunu düşünürdüm. Bununla belə, müraciət etmək qərarına gəldim. Seçim prosesi bir neçə mərhələdən ibarət idi və əsas meyarlardan biri namizədlərin müvafiq akademik hazırlığa və peşəkar təcrübəyə malik olması idi.

Sonuncu seçim mərhələsindən sonra seçiləcəyimi bir növ hiss etmişdim. Bununla belə, rəsmi xəbəri alanda sevindim və eyni zamanda üzərimə götürdüyüm məsuliyyətin əhəmiyyətini düşündüm. Belə bir proqramın tədris fəaliyyətinə töhfə vermək mənim üçün həm peşəkar inkişaf baxımından dəyərli fürsət, həm də mənə göstərilən böyük etimaddır.

“Müəllim hər kəsin düşünməsinə səbəb olan suallar verməyi bacarmalıdır”

— Oksfordda müxtəlif ölkələrdən, fərqli siyasi və mədəni mühitlərdən gələn tələbələrə dərs demək, yəqin ki, xüsusi yanaşma tələb edir. Belə auditoriya ilə işləyərkən nələri əsas götürürsünüz?

— Belə auditoriyada dərs apararkən müəllimin əsas vəzifələrindən biri fərqli baxışların əsaslandırılmış müzakirəsinə şərait yaratmaqdır. Beynəlxalq münasibətlərdə eyni hadisə müxtəlif ölkələrdən gələn tələbələr tərəfindən fərqli qiymətləndirilə bilər. Əsas məsələ bu mövqeləri diqqətlə dinləmək, arqumentləri faktlarla yoxlamaq və müzakirəni akademik çərçivədə saxlamaqdır.

Mənim yanaşmamda hazırlıq yalnız mövzunun nəzəri ədəbiyyatını bilməkdən ibarət deyil. Tələbələr müzakirəyə konkret nümunələr, diplomatik hadisələr və bəzən birbaşa peşəkar təcrübələri ilə gəlirlər. Müəllim bu bilikləri bir araya gətirərək hər kəsin düşünməsinə səbəb olan suallar verməyi bacarmalıdır.

Müxtəlif peşəkar qruplar üçün təlimlər keçməyim bu baxımdan mənə çox kömək edir. Tələbələri fərqli baxış bucaqlarını sərbəst ifadə etməyə təşviq etmək, onların fərdi öyrənmə üslublarını nəzərə almaq və hər kəsin özünü rahat hiss etdiyi inklüziv tədris mühiti yaratmaq mənim üçün əsas prinsiplərdəndir.

— Doktorantura tədqiqatınızın mövzusu da beynəlxalq münasibətlərlə bağlıdır. Hazırda hansı problemi araşdırırsınız və bu mövzuya marağınız necə yaranıb?



— Tədqiqatım böyük güc statusuna malik dövlətlərin arasındakı geosiyasi rəqabətin orta güc statusuna malik dövlətlərin xarici siyasət seçimlərinə necə təsir etdiyini araşdırır.

Bu mövzunu seçməyimdə həm iqtisadiyyat üzrə təhsilim, həm də diplomatiya sahəsindəki peşəkar təcrübəm rol oynayıb. Mən beynəlxalq sistemin təzyiqləri ilə dövlətlərin öz strateji qərarları arasında əlaqəni daha dərindən anlamaq istəyirəm. Tədqiqatın məqsədi həmin əlaqəni izah edən və fərqli halların müqayisəsinə imkan verən nəzəri çərçivə hazırlamaqdır.

— Həm tədqiqatçı, həm də müəllim kimi fəaliyyət göstərirsiniz. Bu iki istiqamət bir-birinə necə təsir edir?

— Bu iki fəaliyyət mənə eyni mövzuya fərqli mövqelərdən baxmağa imkan verir. Tədqiqat zamanı bir problemi bütün mürəkkəbliyi ilə araşdırmağa, alternativ izahları yoxlamağa çalışıram. Tədrisdə isə həmin mürəkkəbliyi tələbələrin müzakirə edə biləcəyi aydın suallara çevirməli oluram və onların tənqidi düşüncə bacarıqlarını gücləndirməyə çalışıram. Bəzən mövzunu izah etməyə çalışarkən öz tədqiqatımdakı hansısa anlayışın daha dəqiq müəyyənləşdirilməsinə ehtiyac olduğunu görürəm.

Digər tərəfdən, elmi işim məni yeni ədəbiyyatla və müasir beynəlxalq münasibətlər nəzəriyyələri ilə daim təmasda saxlayır. Bunun sayəsində dərslərdə yalnız dərslikdəki yanaşmalarla kifayətlənmir, fərqli izahları və onların məhdudiyyətlərini də müzakirəyə çıxara bilirəm.

Məncə, ən maraqlı məqamlardan biri tələbələrin gözlənilməz suallarıdır. Belə suallar bəzən vərdiş etdiyimiz qənaətləri yenidən düşünməyə vadar edir. Bu səbəbdən auditoriyanı biliklərin sadəcə təqdim edildiyi deyil, birlikdə sınandığı bir mühit kimi görürəm. Bundan əlavə, tələbələrim tədqiqat mövzuma böyük maraq göstərir və elmi işim haqqında daha ətraflı məlumat almaq üçün dərslərdən sonra mənə konkret suallar ünvanlayırlar.

— Oksfordun akademik mühitində tədqiqat aparmaq sizə fərqli düşünmə və araşdırma üsulları qazandırıb. Bu təcrübəni Azərbaycan universitetlərinin tədris mühiti ilə müqayisə etdikdə hansı fərqləri görürsünüz?

— Oksfordda mənim üçün xüsusi əhəmiyyət daşıyan yanaşmalardan biri tədqiqat sualına əvvəlcədən hazır cavabla başlamamaqdır. Burada irəli sürülən arqumentləri əsaslandırmaqla yanaşı, onları sual altına ala biləcək alternativ yanaşmaları da ciddi şəkildə araşdırmaq tələb olunur. Müqayisəli təhlil, müxtəlif nəzəri yanaşmaların yoxlanılması və müstəqil mütaliə bu prosesin mühüm hissəsidir.

Tədrisdə də oxşar yanaşma tətbiq olunur. Tələbə mühazirədə verilən məlumatı təkrarlamaqla kifayətlənmir. Oxuduqlarını sorğulamalı, təhlil etməli və öz analitik nəticələrini formalaşdırmalıdır. Akademik müzakirələrdə müəllimlə razılaşmamaq problem sayılmır. Əsas məsələ irəli sürülən mövqenin elmi arqumentlərlə əsaslandırılmasıdır.

Azərbaycandakı təcrübəmə əsasən düşünürəm ki, bizdə fundamental nəzəri hazırlığın güclü tərəfləri var. Bununla belə, xüsusilə sosial və humanitar elmlərin tədrisində seminar müzakirələrinə, müstəqil tədqiqat tapşırıqlarına və analitik yazılara daha çox yer verilməsi, eləcə də bu bacarıqların qiymətləndirmə prosesində nəzərə alınması faydalı olardı. Burada əsas məqsəd hansısa təhsil modelini olduğu kimi köçürmək deyil, onun uğurlu tərəflərini yerli akademik mühitimizə uyğunlaşdırmaqdır.

— Oksfordda üzvü olduğunuz kollecin köməkçi dekan vəzifəsinə də seçilmisiniz. Bu vəzifənin mahiyyəti nədən ibarətdir və hansı məsuliyyətləri əhatə edir?

— Bu vəzifə Oksford Universitetində tələbələrin üzərinə götürə biləcəyi nüfuzlu və məsuliyyətli vəzifələrdən biridir. Bu vəzifəyə seçilmək həm də kollec rəhbərliyinin göstərdiyi etimadın göstəricisidir. Bu rolda tələbələrin müraciətlərini dinləmək, çətin vəziyyətlərdə müvafiq xidmətlərlə əlaqə yaratmağa kömək etmək və kollecdə qarşılıqlı hörmətə əsaslanan mühitin qorunmasına töhfə vermək vacibdir. Eyni zamanda, tələbələrlə kollec rəhbərliyi arasında ünsiyyəti asanlaşdırmaq da vəzifənin bir hissəsidir. Köməkçi dekan həmçinin kollec rəhbərliyi ilə planlaşdırma görüşlərində iştirak edir və bir sıra qərarların qəbulunda birbaşa iştirak edir.

Əvvəlcə bu vəzifəyə namizədliyimi irəli sürmək fikrində deyildim. Lakin kollecdəki akademik rəhbərim mənim peşəkar təcrübəmlə yaxından tanış idi və bu rolda kollec icmasına əhəmiyyətli töhfə verə biləcəyimi bildirərək müraciət etməyimi tövsiyə etdi. Müsahibə mərhələsində mənə müxtəlif praktiki situasiyalar təqdim olundu. Həmin vəziyyətlərə necə yanaşacağım, hansı qərarları qəbul edəcəyim və bu qərarları necə əsaslandıracağım qiymətləndirilirdi.

— Çox vaxt xaricdə uğur qazanan insanların nəticələri görünür, lakin həmin nəticələrə aparan gündəlik zəhmət, tərəddüdlər və çətinliklər kənarda qalır. Halbuki bu nəticələrin arxasında uzun bir hazırlıq prosesi dayanır. Sizin üçün yolun ən çətin tərəfi nə olub?

— Çox düzgün vurğuladınız. Həqiqətən də, insanlar çox vaxt aysberqin yalnız görünən hissəsini, yəni əldə edilən nəticəni görürlər. Halbuki hər bir uğurun arxasında uzun, bəzən də kifayət qədər keşməkeşli bir proses dayanır. Bu yol insandan böyük zəhmət, səbir, fiziki və psixoloji dözümlülük tələb edir. Çətinlik deyərkən əsla yuxusuz gecələri və ya fasiləsiz çalışmağı nəzərdə tutmuram. Bunlar tələbə həyatında normal haldır.

Əslində, nüfuzlu universitetlərə qəbul prosesi mənim üçün o qədər də çətin olmayıb. Hətta Oksford Universitetinin magistratura proqramına müraciətimi təyyarədə olarkən tamamlamışdım, doktorantura müraciətimin hazırlanmasına isə cəmi bir gün sərf etmişdim. Halbuki bu proseslər adətən aylarla hazırlıq tələb edir. Eyni zamanda, qəbul imtahanlarına da müstəqil şəkildə hazırlaşmış və buna cəmi yeddi gün vaxt ayırmışdım. Bunun əsas səbəbi illər ərzində lazımi akademik bilik və peşəkar təcrübə qazanmağım, eləcə də güclü bir portfel formalaşdırmağım idi. Yəni müraciət prosesinin mənim üçün nisbətən asan keçməsi, əslində, uzun illər ərzində çəkdiyim zəhmətin nəticəsi idi.

Peşəkar fəaliyyətdə adətən müəyyən müddət ərzində qərar vermək və konkret nəticə əldə etmək tələb olunur. Doktoranturada isə bəzən aylarla bir tədqiqat sualı üzərində işləyirsən, ilkin qənaətlərini yenidən nəzərdən keçirirsən və nəticələrin dərhal ortaya çıxmadığını qəbul etməli olursan. Bu keçid müəyyən vaxt və səbir tələb edir.

Açığı, bütün bu çətinliklərin öhdəsindən gəlmək üçün xüsusi bir strategiyam olduğunu iddia edə bilmərəm. Sadəcə diqqətimi əsas hədəflərimə yönəltməyə və məni gündəlik işimdən yayındıran amilləri mümkün qədər azaltmağa çalışıram. Məsələn, sosial şəbəkələrdə aktiv deyiləm və şənbə-bazar günləri də işləyirəm. Bununla belə, anlayıram ki, uzunmüddətli məhsuldarlıq üçün daha balanslı iş və istirahət rejimi qurmaq da vacibdir. Bu, hələ də üzərində işlədiyim məsələlərdən biridir.

“Qarşılaşdığım müxtəlif çətinliklərə və sınaqlara baxmayaraq, prinsiplərimə sadiq qalmağı bacardım”

— Xaricdə təhsil almaq və beynəlxalq akademik mühitdə fəaliyyət göstərmək insanın öz ölkəsinə baxışına da təsir edir. Oksfordda keçirdiyiniz illər sizə Azərbaycanı beynəlxalq müstəvidə təmsil etmək baxımından nə öyrədib?

— Oksfordda keçirdiyim müddətdə öz dəyərlərimin nə qədər möhkəm olduğunu daha yaxşı anladım. Qarşılaşdığım müxtəlif çətinliklərə və sınaqlara baxmayaraq, prinsiplərimə sadiq qalmağı bacardım. Bunu xüsusilə diplomatiya üzrə magistratura təhsilim zamanı müşahidə etmişəm. Dərslərdə Azərbaycanla bağlı məsələlər müzakirə olunarkən bəzən ölkəmiz haqqında natamam və ya birtərəfli məlumatlarla qarşılaşırdım. Belə hallarda müzakirələrə fəal qoşulur, faktlara və müxtəlif mənbələrə əsaslanaraq məsələlərə aydınlıq gətirməyə çalışırdım. Mənim üçün vacib idi ki, birlikdə təhsil aldığım diplomatlarda və mənə dərs deyən müəllimlərdə ölkəmiz haqqında yanlış təsəvvürlər formalaşmasın.

Bu gün həmin diplomatların bir qismi dünyanın müxtəlif ölkələrində səfir və konsul kimi fəaliyyət göstərir, digərləri isə beynəlxalq təşkilatlarda strateji əhəmiyyətli vəzifələr tutur. Onların Azərbaycan haqqında daha dolğun və obyektiv təsəvvür formalaşdırmasına müəyyən töhfə verdiyimi düşünmək mənim üçün çox dəyərlidir. Məhz buna görə həmin dövrdə belə bir beynəlxalq akademik mühitdə olmaq və ölkəmin mövqeyini təqdim etmək imkanına malik olduğum üçün sevinirəm.

Azərbaycanı beynəlxalq akademik mühitdə təmsil etməyə verdiyim əhəmiyyət magistratura dissertasiyamın mövzu seçimində də özünü göstərib. Dissertasiyamı Qarabağ münaqişəsinə həsr etmişdim, çünki bu məsələnin faktlara əsaslanaraq, obyektiv şəkildə araşdırılmasını vacib hesab edirdim.

Bütün bu təcrübələr Azərbaycanı beynəlxalq mühitdə təmsil etməyin mənim üçün nə qədər böyük məsuliyyət olduğunu bir daha göstərib. Eyni zamanda, fərqli baxışları dinləmək, öz mövqeyimi əsaslandırılmış arqumentlərlə müdafiə etmək və akademik obyektivliyi qorumaq kimi prinsiplərin əhəmiyyətini daha dərindən dərk etmişəm. Bu gün hesab edirəm ki, beynəlxalq münasibətlərdə uzunmüddətli etimadın formalaşması məhz qarşılıqlı anlaşma, dürüstlük və konstruktiv ünsiyyət kimi dəyərlərdən başlayır.

— Qarşıdakı illərdə özünüzü hansı istiqamətlərdə inkişaf etdirməyi və Azərbaycana hansı sahələrdə töhfə verməyi düşünürsünüz?

— Qarşıdakı illərdə əsas akademik hədəfim doktorantura tədqiqatımı uğurla tamamlamaq və əldə etdiyim elmi nəticələri beynəlxalq akademik mühitdə təqdim etməkdir. Bununla yanaşı, universitetdə tədris fəaliyyətimi davam etdirmək və elmi araşdırmalarımı genişləndirmək istəyirəm. Doktorantura təhsilimi başa vurduqdan sonra isə Azərbaycanda qazandığım akademik bilik və təcrübəni tətbiq edərək ölkəmizin ali təhsil sahəsinə töhfə verməyi planlayıram. Xüsusilə beynəlxalq münasibətlər və diplomatiya üzrə gənc mütəxəssislərin yetişdirilməsində iştirak etmək, universitetlərimizlə xarici akademik qurumlar arasında əməkdaşlıq əlaqələrini genişləndirmək və müasir tədris metodlarının tətbiqinə dəstək göstərmək istəyirəm.

Mərziyyə KAZIMZADƏ


ŞAGİRDLƏRİMİZİN UĞUR HEKAYƏLƏRİ

Məktəblilərimiz beynəlxalq yarışlarda

Azərbaycan məktəbliləri beynəlxalq idman yarışlarında uğurlu nəticələr əldə edərək kikboksinq, boks və şahmat üzrə mükafatçılar sırasına qoşulublar.





Özbəkistanın Daşkənd şəhərində keçirilən rəsmi WAKO Kikboksinq Dünya Kubokunda Azərbaycan millisinin üzvü, Neftçala rayonu Cəngan kənd tam orta ümumtəhsil məktəbinin XI sinif şagirdi Qurban Məhərrəmli bürünc medal qazanıb. 45 ölkədən 2500-dən çox idmançının iştirak etdiyi yarışda məktəbli öz çəki dərəcəsində uğurlu çıxış edib.



Qazax şəhəri Mehdi Hüseyn adına humanitar və təbiət fənləri təmayüllü məktəb-liseyin IX sinif şagirdi Sənan Nəsibli də Avropa çempionatında uğur qazanıb. 52 kq çəki dərəcəsində çıxış edən idmançı gümüş medal əldə edərək qitə birinciliyinin ikinci pilləsində qərarlaşıb. Ümumilikdə, Azərbaycan millisi U-15 Avropa çempionatını 10 medalla başa vurub.

Türkiyənin Trabzon şəhərində keçirilən boks üzrə U-15 Avropa çempionatında isə Azərbaycan məktəbliləri iki medal əldə ediblər. Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin şagirdi Sadiq Xəlilov 54 kq çəki dərəcəsində mübarizə apararaq bürünc medala layiq görülüb. O, 1/8 finalda ukraynalı Mixaylo Tatsii üzərində 3:2, növbəti mərhələdə isə rusiyalı Yaroslav Mikolauskas üzərində 5:0 hesablı qələbə qazanıb. Yarımfinalda şotlandiyalı Cey Şeridana məğlub olan boksçu çempionatı üçüncü yerdə başa vurub.






Şahmat üzrə də məktəblilərimiz beynəlxalq yarışda fərqləniblər. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Azərbaycan Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə oktyabrın 19—26-da Şirvan şəhər Olimpiya Kompleksində keçirilən “Shirvan Open 2026” beynəlxalq şahmat festivalında Hacıqabul Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin yetirməsi, Allahverdi Dadaşov adına 5 nömrəli tam orta məktəbin VI sinif şagirdi Gözəl Sərdar 12 yaşlı oğlanlar arasında birinci yeri tutub. O, uğurlu çıxışına görə medal, diplom və qiymətli hədiyyə ilə mükafatlandırılıb.

Beynəlxalq yarışlarda qazanılan bu nəticələr onu deməyə əsas verir ki, məktəblərimiz təkcə akademik nailiyyətləri ilə deyil, idman sahəsindəki uğurları ilə də seçilirlər.

Şagirdlər uşaqların ayaq sağlamlığı üçün cihaz hazırlayıblar



Bakı məktəblilərindən ibarət komanda uşaqlarda ayaq formasını və yük paylanmasını ilkin mərhələdə yoxlamağa imkan verən “SoleShift Kids” layihəsini hazırlayıb.

Azərbaycan Tibb Universitetinin Travmatologiya kafedrasının əməkdaşı, tibb üzrə fəlsəfə doktoru Ayaz Hümbətovun elmi rəhbərliyi ilə hazırlanan prototip səkkiz təzyiq sensoru və ESP32 mikrokontrolleri əsasında işləyir. Cihaz bir neçə saniyədə ayağın müxtəlif nahiyələrinə düşən yükü ölçərək valideynlər üçün anlaşıqlı hesabat hazırlayır.

Jeyla Əhmədzadə, İlyas Tağıyev, Youssef El Haroun, Vahid Musayev və Mikayıl Əhmədbəylinin hazırladığı layihə tibbi diaqnoz qoymur, ilkin skrininq və məlumatlandırma məqsədi daşıyır. Narahatlıq doğuran nəticələr olduqda valideynlərə mütəxəssisə müraciət etmək tövsiyə edilir.

Paytaxt məktəblərində nümayiş etdirilən layihə çərçivəsində yoxlamalar uşaqların hüquq və məxfiliyinin qorunması məqsədilə yalnız valideynlərin yazılı razılığı ilə aparılır. Təşəbbüs uşaqların sağlamlığının qorunmasına və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən “Sağlamlıq və rifah” məqsədinə töhfə verməyə yönəlib.

KOD YAZIB, MEDAL QAZANDILAR:

Dünyanın 120 istedadı arasında seçilən azərbaycanlılar

Məktəblilərimiz Rumıniyada təşkil olunan “Stars of Informatics” virtual proqramlaşdırma müsabiqəsində ölkəmizi layiqincə təmsil edərək yüksək nəticələr göstəriblər. Belə ki, oktyabrın 16-19-da keçirilən nüfuzlu bilik yarışında komandamız 2 qızıl və 2 gümüş medal qazanıb. Dünyanın 23 ölkəsindən 120 gəncin qatıldığı müsabiqədən qalib çıxan məktəbli proqramçılarımız “Azərbaycan müəllimi”nə uğurlarından danışıb, qazandıqları nailiyyətin ilk olmadığını bildiriblər.



“Stars of Informatics”in qızıl medalçısı respublika və beynəlxalq olimpiadalar qalibidir

“Stars of Informatics”dən qızıl medalla qayıdan iki şagirddən biri Göyçay məktəblisidir. Vaqif Abdullayev Göyçay şəhər 3 nömrəli tam orta məktəbin X sinif şagirdidir. Qızıl medalçı uğurunun sirrini informatikaya olan sevgisi ilə izah edib: “Riyaziyyat və informatikanı çox sevirəm. İnformatikada xüsusi bacarıq və istedadımı VIII sinifdə iştirak etdiyim Respublika Fənn Olimpiadasında anladım. Həmin müsabiqədə uğur qazanaraq bürünc medala layiq görüldüm”.

O vaxtdan rəqəmsal dünyaya marağı xüsusilə artan Vaqif deyir ki, rəqabət informatikanın ən çox sevdiyi xüsusiyyətidir.

“Stars of Informatics”ə hazırlaşarkən həm onlayn hazırlıq qruplarına qoşularaq olimpiada təcrübəsi olan müəllimlərdən dəstək alıb, həm də bu istiqamətdə öz müəllimləri əlindən gələni ediblər. Amma onu olimpiadaya aparan əsas qüvvə atası olub: “Əvvəldən ən böyük dəstəyi atamdan alıram. Məni olimpiadalara yönləndirən, məhz informatika üzrə iştirak etməyimi dəstəkləyən atam olub”.

Vaqif başqa uğurlarından da qürurla danışır: “VII sinifdən Respublika fənn olimpiadalarına qatılıram. Ölkə üzrə müsabiqə və olimpiadalarda həm bürünc, həm gümüş, həm də qızıl medallarım olub”.

Beynəlxalq uğurlarına gəlincə, məktəblilər arasında proqramlaşdırma və informatika sahəsində keçirilən ən nüfuzlu qlobal yarışlardan biri olan Con Atanasov adına Beynəlxalq Təkmil İnformatika Turnirindən (International Advanced Tournament in Informatics) gümüş, Avropa ölkələrindən olan gənc proqramlaşdırma istedadlarını bir araya gətirən mötəbər bir alqoritmik yarış olan Beynəlxalq Yeniyetmələrin Avropa İnformatika Olimpiadasından (EJOI-European Junior Olympiad in Informatics) bürünc medal gətirib.

“Stars of Informatics” özünü ulduz hesab etmir, deyir, ondan yaxşı olanlar var və həmişə olacaq: “Gələcəkdə isə istəyirəm ki, xaricdəki məşhur universitetlərdən birində kompüter elmləri üzrə təhsil alım”.

“Cavabımın fərqli olması üçün suala başqa cür baxır, başqa nöqteyi-nəzərdən izah etməyə çalışıram”

Digər qızıl medalçımız Tuncay Paşayev isə Bakı məktəblisidir. O, Bakı şəhər Fizika, riyaziyyat və informatika təmayüllü respublika liseyinin X sinif şagirdidir.

Gənc istedad “Azərbaycan müəllimi”nə müsahibəsində “Stars of Informatics”də qələbənin asan başa gəlmədiyini deyib: “Mübarizə çox çətin idi, bütün dünya üzrə ən güclü uşaqlara qarşı yarışırdıq”.

İnformatika ulduzu olmaq, özünü məhz ulduz kimi hiss etmək üçün öz qarşısında qoyduğu bəzi hədəflər var: “Özümü ulduz hesab etmək üçün hələ bir çox hədəflərim var”.

Gələcək hədəfinə gəlincə, o, Sinqapur Milli Universitetinin (NUS) tələbəsi olmaq istəyir: “Kompüter elmləri, riyaziyyat və süni intellekt üzrə ixtisaslaşacağam”.

Çünki ən sevdiyi sahə informatikadır: “İnformatikanın dərinliyinə getdikcə daha maraqlı şeylər kəşf edirəm. Riyaziyyatı da çox sevirəm, çünki onu da informatikanın sağ qolu hesab edirəm”.

Tuncay deyir ki, “Stars of Informatics”in Azərbaycan üzrə 4 ulduzundan biri olmağı məhz onun olimpiada və yarışlarda nailiyyətləri ilə bağlıdır: “Bu yarışa qatılanlardan olmağım da təsadüf deyil. Respublika fənn olimpiadalarında ən yüksək nəticə toplayan 4 şagirdi seçirdilər və mən onlardan biri idim”.

Tuncay uğuru V sinifdən tanıyır, özü də məhz rəqəmsal yarışdan. O, “Hour of Code” adlı rəqəmsal yarışda ölkə üzrə III olub. Uğurlarının davamı yuxarı siniflərdə də gəlib və o, bürünc, gümüş, qızıl medallar qazanıb. “Milli Hakaton 2025” yarışmasında III yerə çıxıb. Beynəlxalq uğurları da kifayət qədər olan Tuncay Con Atanasov adına Beynəlxalq Təkmil İnformatika Turnirində (International Advanced Tournament in Informatics) gümüş, Beynəlxalq Yeniyetmələrin Avropa İnformatika Olimpiadasında (European Junior Olympiad in Informatics) bürünc medala layiq görülüb.

Uğurlarının səbəbini isə məqsədyönlülüyü ilə izah edir: “Çalışıram ki, hər məqsədimə çatım, bunun üçün əlimdən gələni edirəm”.

Tuncay fərqlənməyi də sevir və bu xüsusiyyəti onun uğurlarının açarı sayılır: “Kreativ olmağa çalışıram, hamı bir suala oxşar və sadə cavablar verir, mən cavabımın fərqli olması üçün suala başqa cür baxır, başqa nöqteyi-nəzərdən izah etməyə çalışıram”.

“Yarışdan əvvəl nə qədər həyəcanlı olsam da, yarış zamanı həmişə soyuqqanlı olmuşam”

“Stars of Informatics”in 2 gümüş medalçısından biri Mahmud İsalı VI sinifdən informatika fənni ilə maraqlandığını deyir. Elə o yaşlardan da Respublika fənn müsabiqələrində medallar qazanıb: “VIII sinifdə kodlaşdırmağı öyrəndim və bu fənnə olan marağım daha da artdı”.

Bakı şəhər Kimya və biologiya təmayüllü liseyin X sinif şagirdi deyir ki, ilk böyük nailiyyəti RFO-nun qızıl medalçısı olmasıdır: “Buna görə bir neçə beynəlxalq yarışa seçildim və həmin yarışlarda əlimdən gələni etdim”.

Uğurunun sirri isə həyəcanını idarə edə bilməsidir: “Yarışdan əvvəl nə qədər də həyəcanlı olsam da, yarış zamanı həmişə soyuqqanlı olmuşam”.

Beynəlxalq Yeniyetmələrin Avropa İnformatika Olimpiadasının (European Junior Olympiad in Informatics-EJOI) iştirakçısı olan Mahmud “Stars of Informatics”ə RFO qalibləri arasında yer aldığı üçün qatıla bilib: “Bu sahədə nə qədər uğurlu olsam da, bilmədiyim çox mövzu və sual tipi var”.

Ən böyük arzusu kompüter elmləri üzrə mütəxəssis olmaqdır: “Mənim xəyalımdakı ali təhsil müəssisəsi Sinqapur Milli Universitetidir. Mən orada kompüter elmləri ixtisası üzrə təhsil almaq istəyirəm”.

VIII sinif şagirdinin ilk beynəlxalq uğuru gümüş medal oldu

“Stars of Informatics” olimpiadasında qazandığı gümüş medal Həsənin ilk beynəlxalq uğurudur. O da olimpiadaların həvəskarıdır: “V sinifdən mütəmadi yarışlarda iştirak edirəm. Lütfi Zadə adına olimpiadalarda, riyaziyyat olimpiadalarında iştirak etmişəm, respublika fənn müsabiqələrində qızıl medallar qazanmışam. Olimpiadalarda yaxşı göstəricilərim olduğuna görə əvvəlcə Beynəlxalq Yeniyetmələrin Avropa İnformatika Olimpiadasında (EJOI), sonra “Stars of Informatics”də iştirak etdim”.

Həsən Süleymanov “Gənc istedadlar” liseyinin VIII sinif şagirdir. Gələcəklə bağlı planlarını hələ qətiləşdirməsə də, riyaziyyat və informatikanı sevməyə, olimpiadalarda uğur qazanmağa davam edəcək.

Nə deyək, təki arzularınız plana, planlarınız reallığa çevrilsin, əziz məktəblilər!

Ruhiyyə DAŞSALAHLI

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

Gəncə Dövlət Universiteti

aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə

ELAN EDİR:

Kafedralar üzrə boş olan vəzifələr:

1. Anatomiya, fiziologiya və zoologiya	- kafedra müdiri; baş müəllim, 1 yer, 0,5 ştat;
2. Ekologiya və təbiəti mühafizə	- kafedra müdiri;
3. İqtisadiyyat	- dosent, 1 yer; müəllim, 2 yer;
4. İdarəetmə	- müəllim, 2 yer;
5. Menecment və turizm işi	- dosent, 1 yer;
6. Musiqi fənləri	- müəllim, 1 yer;
7. Ümumi pedaqogika	- müəllim, 1 yer, 0,5 ştat;
8. Alman dili	- müəllim, 2 yer;
9. Rus dili	- müəllim, 2 yer;
10. Azərbaycan və dünya ədəbiyyatı	- baş müəllim, 1 yer, 0,75 ştat;
11. Riyazi analiz	- baş müəllim, 1 yer;

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 saylı əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması” Qaydalarına və 07.08.1996-cı il tarixli 401 saylı əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında” Əsasnaməyə uyğun olaraq elan olunduğu gündən 1 ay müddətində qəbul edilir.

ÜNVAN: *AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429. Gəncə Dövlət Universiteti, əsas bina (I)*
Telefon: *(022) 266-01-89*

REKTORLUQ

“AZƏRBAYCAN MÜƏLLİMİ”

Qəzet 1934-cü ildən çıxır

Baş redaktor əvəzi
Çingiz Səfərli

Reklam və elanlar: Mob.: (010) 253-30-86; elan@media.edu.az

Ünvan: AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

Bank hesabımız
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

Lisenziya: № 022327 **İndeks:** 1052
Tiraj: 35130 **Sifariş:** 1428
Məsul növbətçi: O.Mustafayev

Oyuncaqları yığmaq da öyrənməyin bir yoludur



Oyuncaqları saymaq, rənglərinə və ölçülərinə görə ayırmaq, istifadə etdikdən sonra yerinə yığmaq məktəbəqədər yaşlı uşaqların gündəlik fəaliyyətləri sırasındadır. Bəs bu fəaliyyətlər uşaqlarda hansı bilik və bacarıqların formalaşmasına kömək edir? Bağçada öyrənilənlərin evdə möhkəmləndirilməsi üçün valideynlər nələrə diqqət yetirməlidirlər? “Azərbaycan müəllimi”nə açıqlamasında Təhsil İnstitutunun (ARTİ) böyük elmi məsləhətçisi, dosent Laləzar Cəfərova bildirib ki, uşaqlar gündəlik fəaliyyətlər vasitəsilə həm yeni biliklər qazanır, həm də onları praktikada tətbiq etməyi öyrənirlər:

“Oyuncaqları saymaq uşaqlarda ilkin riyazi təsəvvürlərin, sayma bacarığının və kəmiyyət anlayışının formalaşmasına kömək edir. Oyuncaqları rənglərinə, formasına və ölçüsünə görə qruplaşdırmaq müqayisəetmə, fərqləndirmə, təsnifetmə və məntiqi düşünmə bacarıqlarını inkişaf etdirir. Uşaq bu zaman əşyaların oxşar və fərqli cəhətlərini müəyyənləşdirməyi, onların xüsusiyyətləri arasında əlaqə qurmağı öyrənir”.

Onun sözlərinə görə, oyuncaqları yerinə yığmaq kimi sadə fəaliyyətlər uşaqların yalnız səliqəli olmasına deyil, müstəqillik, məsuliyyət və özünəxidmət bacarıqlarının inkişafına da kömək edir:

“Uşaqlar əşyaların yerini yadda saxlamağı, verilmiş tapşırığı ardıcıllıqla yerinə yetirməyi və ümumi qaydalara əməl etməyi öyrənirlər. Bu fəaliyyətlər onların nitq inkişafına da töhfə verir. Tərbiyəçi-müəllim uşaqlara "Neçə oyuncaq var?", "Hansı rəngdə olan oyuncaqlar daha çoxdur?" kimi suallar verməklə onların müşahidələrini sözlə ifadə etmələrinə və yeni anlayışlar mənimsəmələrinə şərait yarada bilər”.

L.Cəfərova qeyd edib ki, gündəlik işlərin öyrənmə prosesinə daxil edilməsi üçün ayrıca məşğələlər təşkil etmək hər zaman zəruri deyil:

“Öyrənmə gündəlik fəaliyyətin təbii axarında təşkil edilməlidir. Məsələn, süfrə hazırlayarkən uşaqlardan qaşıqları saymaq, eyni rəngli qabları seçmək, tikinti materiallarını ölçüsünə görə ayırmaq, gəzinti zamanı yarpaqları müqayisə etmək xahiş oluna bilər. Burada tərbiyəçi-müəllimin rolu hazır cavabları təqdim etməkdən daha çox uşağın düşünməsinə, müşahidə aparmasına və özü nəticəyə gəlməsinə şərait yaratmaqdır”.

Dosent bildirib ki, bu fəaliyyətlər uşaqların yaşına və fərdi inkişaf səviyyəsinə uyğunlaşdırılmalıdır. Kiçikyaşlı uşaqlara əşyaları sadə əlamətlərinə görə ayırmaq, daha böyük uşaqlara isə onları bir neçə xüsusiyyətinə görə qruplaşdırmaq və seçimlərini izah etmək təklif oluna bilər.

L.Cəfərova uşaqların gündəlik fəaliyyətlər vasitəsilə öyrənməsində ailə ilə məktəbəqədər təhsil müəssisəsinin əməkdaşlığına da diqqət çəkib:

“Uşağın inkişafı uşaq bağçasında və evdə ayrı-ayrılıqda baş verən proses deyil. Bu iki mühitdə yaradılan imkanlar bir-birini tamamladıqda uşaq qazandığı bilik və bacarıqları müxtəlif şəraitlərdə tətbiq edir, onları möhkəmləndirir və tədricən müstəqil fəaliyyət vərdişlərinə çevirir”.

Onun sözlərinə görə, valideynlərə ev şəraitində tətbiq edə biləcəkləri sadə və yaşa uyğun tövsiyələr verilməlidir:

“Məsələn, bağçada uşaqlar əşyaları rənglərinə və ölçülərinə görə ayırmağı öyrənirlərsə, evdə paltarları rənglərinə görə qruplaşdırmaq, oyuncaqları ölçülərinə uyğun yerləşdirmək və ya süfrə hazırlayarkən boşqabları saymaq kimi fəaliyyətlər təşkil edilə bilər. Beləliklə, uşaq bağçada qazandığı bacarığı real həyat şəraitində tətbiq etmək imkanı əldə edir”.

L.Cəfərova onu da vurğulayıb ki, valideynlər uşaqların gündəlik işlərdə müstəqil iştirakını dəstəkləməlidirlər:

“Valideynlərin diqqət yetirməli olduğu əsas məqamlardan biri uşağın əvəzinə işi görmək deyil, onun müstəqil fəaliyyətinə şərait yaratmaqdır. Uşağın oyuncaqlarını yığması, geyimlərini qaydaya salmağa çalışması, süfrə hazırlığında iştirak etməsi və sadə ev işlərinə kömək göstərməsi onun müstəqilliyinin və məsuliyyət hissinin inkişafı baxımından əhəmiyyətlidir.

Bundan əlavə, bağçada öyrədilən davranış və bacarıqların evdə də dəstəklənməsi uşaqların gündəlik vərdişlərinin möhkəmlənməsinə kömək edir. Bu zaman valideynlər uşağın yaşını, maraqlarını və fərdi imkanlarını nəzərə almalı, onun cəhdlərini qiymətləndirməli və öyrənməyə marağını artırmalıdırlar".

AYTAC ŞİRİNZADƏ

Etibarsız sayılır

Bakı şəhər Səbail rayon 7 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Kazımi Bəhruz Pərviz oğluna verilmiş B-008224 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Zərdab rayon Çallı kənd tam orta məktəbi 2017-ci ildə bitirmiş Pirməmmədli Tərlan Eynulla oğluna verilmiş E-063283 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 205 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Orucova Aygün Ələvsət qızına verilmiş B-483038 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

İsmayıllı rayon Kürdmaşı kənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Abbasova (Nağıyeva) Günel Azər qızına verilmiş A-050010 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Naxçıvan Dövlət Universiteti tərəfindən 2019-cu ildə Abdullayev Elvin Əjdər oğluna verilmiş C-040508 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

Neftçala şəhər 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1987-ci ildə bitirmiş Qorçiyev İskəndər Absalam oğluna verilmiş AK-360423 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Mingəçevir şəhər 14 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Mehdiyeva Nilufər Tahir qızına verilmiş B-264547 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Gəncə şəhər 16 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Cahani Mətanət Fikrət qızına verilmiş AO-001422 nömrəli natamam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Balakən şəhər N.Gəncəvi adına 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş İbrahimova (Dünyamalıyeva) Makvala Bəxtiyar qızına verilmiş 092631 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Göyçay şəhər 3 nömrəli tam orta ümumtəhsil məktəbi 1998-ci ildə bitirmiş Həzrətquliyeva (Səfərova) Ellada Eldar qızına verilmiş A-257718 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Lerik şəhər 1 nömrəli texniki fənlər təmayüllü məktəb-liseyi 2013-cü ildə bitirmiş Məlikov Elnur İlham oğluna verilmiş A-233165 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Cəbrayıl rayon Hovuslu kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Teymurova Könül Abbasəli qızına verilmiş B-573673 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Şəmkir rayon Qapanlı kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Məmmədova (Mehtiyeva) Aybəniz Məhəmməd qızına verilmiş A-434239 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Gəncə şəhər Məişət Xidməti Kolleci tərəfindən 1998-ci ildə Hüseynova Lalə Əlibəy qızına verilmiş AB-II-040815 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Naxçıvan Özəl Universiteti tərəfindən 2005-ci ildə Əsgərova Lamiyə Fazil qızına verilmiş B-034263 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

Samux rayon Füzuli kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 2016-cı ildə bitirmiş Tağıyeva (Məsimova) Təranə Anar qızına verilmiş A-669944 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Zərdab rayon Bəyimli qəsəbə tam orta ümumtəhsil məktəbi 2016-cı ildə bitirmiş Mikayılov Daşqın Bəxtiyar oğluna verilmiş A-525084 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

DİN-in Polis Akademiyası tərəfindən 2022-ci ildə Burcalıyev Ələsgər Müşfiq oğluna verilmiş C-131443 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 49 nömrəli “İntellekt” məktəb-liseyin IX sinfini 2021-ci ildə bitirmiş Pənahov Rüstəm Qurban oğluna verilmiş C-454125 nömrəli ümumi orta təhsil haqqında attestat və 2023-cü ildə verilmiş E-569398 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Gədəbəy şəhər 4 nömrəli ümumi orta ümumtəhsil məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Süleymanova Gülşən Məmməd qızına verilmiş C-102887 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 204 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Həsənov Ehtibar Nadir oğluna verilmiş B-130541 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

İsmayıllı şəhər 3 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Məsimova Vüsalə Haqverdi qızına verilmiş A-424095 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Odlar Yurdu Universiteti tərəfindən 2011-ci ildə Novruzova Xalidə Xalid qızına verilmiş MNA-026718 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci tərəfindən 2009-cu ildə Abasova Maral Mübariz qızına verilmiş BB-II-096774 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Ağdaş şəhər M.İsayev adına tam orta məktəbi 2005-ci ildə bitirmiş Rəhimova (Yəhyayeva) Pərvanə Əjdər qızına verilmiş 144424 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 14 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Ələkbərova Günay Eldəniz qızına verilmiş B-260057 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən 1999-cu ildə Muxtarov Emil Sərhəd oğluna verilmiş A-052675 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

DİN-in Polis Akademiyası tərəfindən 2009-cu ildə Muxtarov Emil Sərhəd oğluna verilmiş BB-I-011089 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Beyləqan rayon I Şahsevən kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2018-ci ildə bitirmiş Abışov Səccad Vüqar oğluna verilmiş E-163183 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Neftçala rayon Həsənabad qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2000-ci ildə bitirmiş Rəcəbov Emin Malik oğluna verilmiş A-459718 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı Ali Neft Məktəbi tərəfindən 2023-cü ildə Həsənov Ruslan Rasim oğluna verilmiş C-169034 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

DİN-in Polis Akademiyası tərəfindən 1996-cı ildə Quliyev Faiq Volodya oğluna verilmiş AB-I-037406 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

Şirvan şəhər 10 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Həsən Amin Azər oğluna verilmiş E-591441 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Gəncə şəhər 24 nömrəli tam orta məktəbin IX sinfini 1987-ci ildə bitirmiş Həsənov Eldəniz Adil oğluna verilmiş 192914 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 51 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Əzizova Nəzrin Qədir qızına verilmiş E-468495 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Cəlilabad rayon Gülməmmədli kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Nuriyeva (Nəsirova) Pərvanə Höccət qızına verilmiş B-168201 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Ağdam rayon Zəngişalı kənd tam orta ümumtəhsil məktəbi 2013-cü ildə bitirmiş Quliyeva Sevinc Rəfail qızına verilmiş A-234264 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Tovuz şəhər N.Tusi adına məktəb-liseyi 1983-cü ildə bitirmiş Qasımov Asəf Binnət oğluna verilmiş A-468412 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Tovuz Peşə Liseyini 2012-ci ildə bitirmiş Namazlı Surac Leysan oğluna verilmiş A-177244 nömrəli tam orta təhsil haqqında attestat və A-023192 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

10 nömrəli Bakı Peşə Liseyi (Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 2007-ci ildə Allahverdiyev Kamran İbrahim oğluna verilmiş BB-023221 nömrəli diplom və attestat itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Vəndam qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Nüsürüyeva Leyla Sahib qızına verilmiş A-444186 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 300 nömrəli tam orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Ağayeva (İsmayılova) Günel Qaybalı qızına verilmiş 225125 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 300 nömrəli tam orta məktəbin IX sinfini 1985-ci ildə bitirmiş Ağayeva Hicran Musa qızına verilmiş 033685 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

80 nömrəli Orta Texniki Peşə Məktəbi tərəfindən 1989-cu ildə Şamuilova Evelina İfitovna qızına verilmiş B-103898 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Bakı Dövlət Universiteti tərəfindən 2010-cu ildə Tağıyev Xəzər Azər oğluna verilmiş B-196926 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 72 nömrəli məktəb-liseyi 2020-ci ildə bitirmiş Mirzəzadə Arzu Şahverdi qızına verilmiş E-278600 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Şabran rayon (keçmiş Dəvəçi rayon) Zeyvə kənd tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Hacıyev Yusif Namiq oğluna verilmiş A-355218 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Masallı şəhər 5 nömrəli tam orta ümumtəhsil məktəbi 1999-cu ildə bitirmiş Maliyeva (Aslanova) Ülviyyə Fəxrəddin qızına verilmiş A-376625 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Yevlax şəhər 8 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Kazımov Yunus Emin oğluna verilmiş E-522018 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Masallı şəhər 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2016-cı ildə bitirmiş İmanov Sabit Azər oğluna verilmiş A-684346 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 74 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Quliyev Zaur Vadim oğluna verilmiş A-045122 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.